www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 avqust 2025-ci il Cümə axşamı № 152 (8762) Qiymıti 60 qəpik

**Xəbər**

## Ölkədə "kamikadze" azyaşlılar artır - şok xəbərdarlıq

yazısı səh.15-də

**Gündəm**

### Qafqazda yeni cəbhə açmaq hazırlığı - şok gəlişmə



Rusiya və İran prezidentlərinin danışığından sonra Tehran Qərbə qarşı hərəkətlənməyə çağırır - Bakının reaksiyası

yazısı səh.9-da

### Azərbaycan-Rusiya görüşü İrəvanda panika yaratdı

yazısı səh.6-da

### Bakının Trampdan daha bir kritik gözləntisi

yazısı səh.7-də

### Moskvanın bitməyən Zəngəzur təlaşı - reaksiya

yazısı səh.8-də

### Minsk Qrupunun "dəfn günü" - gözlər ATƏT-də

yazısı səh.7-də

### Qonşumuzdan yeni savaş anonsu - bu dəfə...

yazısı səh.6-da

### Putinə son xəbərdarlıq - Rusiyanı iki həftəyə nə gözləyir?

yazısı səh.13-də

### Bakıdakı iki erməni quldur ömürlük cəza almayacaq - səbəb

yazısı səh.12-də

### Əhalinin nəzərinə! Bu halda sosial ödənişlər verilməyəcək

yazısı səh.2-də

### Həyət evi olanların nəzərinə! Sentyabrın 1-dən...

yazısı səh.15-də

### İŞİD-çi ailələri Azərbaycana verilir - sensasion rəqəm

yazısı səh.12-də

# İLHAM ƏLİYEV RUSİYA İLƏ BAĞLI BÜTÜN GERÇƏKLƏRİ AÇIQLADI

Dövlət başçısı Bakı-Moskva münasibətlərini dəyərləndirdi, açıq mesajlar verdi: "Bu hörmətsizliyə dözməyəcəyik!"



yazısı səh.3-də

## Bakıda yanan iri bazarlar - sahibkarlar niyə sığortadan qaçır?

Obyekt sahibləri onları gözləyən külli miqdarda zərəri kompensasiya etməyə hər dəfə biganə yanaşırlar; mütəxəssislərdən iş adamlarına çağırış

yazısı səh.14-də




*Deputat:*

### "Prezidentin qərarını gözləmək lazımdır"

yazısı səh.5-də



*Rasim Balayev:*

### "Nəsiminin məzarı Azərbaycana gətirilsə yaxşıdır"

yazısı səh.10-da



*Fərhad Məmmədov:*

### "Sülh üçün risklər var"

yazısı səh.9-da

# Əhalinin nəzərinə! Bu halda sosial ödənişlər verilməyəcək



Şəxsiyyət vəsiqəsinin istifadə müddəti bitən vətəndaşlar sosial ödənişlərini ala bilmir.

"Unikal" xəbər verir ki, **Dövlət Sosial Müdafiə Fondunun (DSMF) mətbuat katibi Rəşad Mehdili** sosial şəbəkə hesabında məsələyə aydınlıq gətirib. O bildirib ki, fondun sosial ödənişləri vətəndaşlara münasibətdə şəxsiyyət vəsiqəsi məlumatlarına bağlıdır: "Qüvvədə olan şəxsiyyət vəsiqəsi olmasa, ödənişlərin sistem üzərindən həyata keçirilməsi mümkün deyil. Buna görə də şəxsiyyət vəsiqəsi hər hansı səbəbdən qüvvədən düşmüş vətəndaşlar məsələ ilə bağlı aidiyyəti qurumlara müraciət edib, yeni qüvvədə olan şəxsiyyət vəsiqəsi almalıdır ki, sosial ödənişlərinin davam etdirilməsi mümkün olsun".



## Qatar Ağdama gedir - biletin qiyməti açıqlandı

**AZCON Holding şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC (ADY) 30 avqust tarixindən Bakı-Ağdam-Bakı marşrutu üzrə sərnişin daşımalarına start verir.**

ADY-dən verilən məlumata görə, sərnişinlərə İsveçrənin "Stadler" şirkətinin istehsalı olan "FLIRT" markalı müasir qatarlarla xidmət göstəriləcək.

Məlumata görə, hərəkət cədvəlinə əsasən, qatar şənbə günləri Bakıdan saat 07:10-da yola düşəcək, Ağdama 11:53-də çatacaq. Ağdamdan saat 18:20-də çıxan qatar isə saat 22:55-də Bakı Dəmiryol Vağzalında olacaq.

Sərnişinlər marşrut üzrə Bakı, Biləcəri, Ucar, Ləki, Yevlax, Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyalarından istifadə edə biləcəklər.

Sərnişinlərə standart, standart+, biznes və birinci siniflər üzrə səyahət imkanları təklif olunacaq. Bakıdan Bərdə və Köçərli stansiyasına, Təzəkənd dayanacağına biletlərin minimum qiyməti 12 AZN, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə isə 12,80 AZN təşkil edir. Səfər zamanı qatarda ödənişsiz "Wi-Fi" xidmətindən yararlanmaq mümkün olacaq.

Bakı-Ağdam-Bakı marşrutu üzrə biletləri 27 avqust tarixindən ADY-nin veb-saytından, "ADY Mobile" tətbiqindən və dəmiryol kassalarından əldə etmək olar.

İşğaldan azad edilmiş ərazilərə qatarla komfortlu səfərlərin təşkili məqsədilə Bakı-Ağdam-Bakı marşrutu üzrə bilet alışı zamanı portaldan avtomatik icazə təmin olunacaq.

Xatırladaq ki, işğal dövrünə qədər Bakıdan Ağdama kimi sərnişin daşımaları Bakı-Xankəndi-Bakı marşrutu üzrə hərəkət edən yataq tipli qatarla həyata keçirilirdi. Qatarlar Bakı-Ağdam-Bakı istiqamətində sonuncu dəfə 1993-cü ildə hərəkət edib. Həmin vaxt qatarla Ağdama kimi 371 km olan məsafə 8 saat yarıma qət edilirdi.

Bakı-Ağdam-Bakı dəmir yolu Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, Ağdam və ətraf rayonların sosial-iqtisadi dirçəlişinə, Azərbaycanın bu bölgədə nəqliyyat imkanlarının genişlənməsinə, bütövlükdə Böyük Qayıdışa mühüm töhfə verəcək.

## ABŞ-dən Azərbaycana turist axını artıb

**Bu ilin yanvar-iyun aylarında Azərbaycana 10 862 nəfər ABŞ vətəndaşı səfər edib. "APA-Economics" bu barədə Dövlət Turizm Agentliyinin məlumatları əsasında hesablamalar aparıb. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18% çoxdur.**

Cari ilin yanvar ayında Azərbaycana 1 069 nəfər (illik +23,7%), fevral ayında 924 nəfər (illik +11,5%), mart ayında 1 322 nəfər (illik +17,2%), aprel ayında 1 439 nəfər (illik +26,5%), may ayında 2 239 nəfər (illik +7,5%), iyun ayında 2 439 nəfər (illik +22,4%) ABŞ vətəndaşı gəlib.

Azərbaycana gələn ABŞ vətəndaşlarının sayı 2024-cü ildə 22 927 nəfər (illik +35,1%), 2023-cü ildə 16 971 nəfər (illik +37,96%), 2022-ci ildə 12 301 nəfər (illik +2,8 dəfə), 2021-ci ildə 4 400 nəfər (illik +69,04%), 2020-cü ildə 2 603 nəfər (illik -86,12%), 2019-cu ildə 18 759 nəfər (illik +7,2%) təşkil edib.

## Azərbaycanda tütün ixracı azalıb, idxalı artıb

**2025-ci ilin yanvar-iyul aylarında Azərbaycan 28 milyon 618.64 min ABŞ dollar dəyərində tütün və tütünün sənaye əvəzediciləri ixrac edib.**

Teleqraf Dövlət Gömrük Komitəsinin məlumatına əsasən xəbər verir ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 13.7% azdır.

Hesabat dövründə ölkəyə 70 milyon 347.98 min manatlıq tütün və tütünün sənaye əvəzediciləri idxal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4.2% faiz artım deməkdir.

Qeyd edək ki, cari ilin 7 ayında tütün və onun sənaye əvəzedicilərinin ixracı ümumi ixracın 0.19%-ni, idxal isə ümumi idxalın 0.52%-ni təşkil edib.

## AFFA iki klubu cəriməlɘdi

**AFFA İntizam Komitəsinin iclası keçirilib. QOL.az xəbər verir ki, bu barədə PFL-in mətbuat xidməti məlumat yayıb.**

İclasda Misli Premyer Liqasının 2-ci turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib. Qurumun qərarlarına əsasən, "Kəpəz" - "Karvan" oyununda "Karvan"ın heyətində 4 nömrəli futbolçu Olavale Doyeninin futbol formasında adının yazılışında Azərbaycan əlifbasında olmayan hərfdən istifadə edildiyi, komandaya Premyer Liqaya yeni gələn klub olduğuna görə ilk turda güzəşt olunmasına baxmayaraq hal yenidən təkrarlandığı üçün "Karvan" klubu 1500 manat cərimə edilib.

Həmçinin "Turan Tovuz"-"Araz-Naxçıvan" oyununda "Araz-Naxçıvan"ın heyətində 4 futbolçu sarı vərəqə aldığı üçün "Araz-Naxçıvan" klubu 700 manat cərimələnib.

## Bu tarixdən balıq ovuna icazə veriləcək

**Kürüləmə dövrü ilə əlaqədar sənaye məqsədi ilə balıq və digər su bioresurslarının ovu Kür çayında, Sarısu gölündə, Mingəçevir, Şəmkir, Araz, Yenikənd su anbarlarında balıq ovuna moratorium sentyabrın 1-də başa çatır. Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.**

2025-ci il 1 sentyabr tarixindən balıq ovlama müddəti açıq elan olunur. Qanunsuz balıq ovunun qarşısının alınması məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakulura Mərkəzinin və Daxili İşlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən Xəzər dənizin Azərbaycan Respublikasına mənsub bölgəsində və ölkənin daxili su hövzələrində mütəmadi nəzarət tədbirləri həyata keçirilir.

Xatırladaq ki, balıq və digər su bioresurslarının ov qaydalarının pozulmasına, o cümlədən qanunsuz ovlanmasına görə təqsirkar şəxslər müvafiq olaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəllesi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakulura Mərkəzi balıq ovu ilə məşğul olan bütün fiziki və hüquqi şəxsləri qaydalara əməl etməyə, qadağan olunmuş vaxtlarda, qadağan olunmuş alətlərlə balıq ovlamaqdan çəkinməyə, həmçinin, müvafiq balıqovlama bileti olmayan vətəndaşları su hövzələrində ovla məşğul olmamağa çağırır.

Eyni zamanda, vətəndaşları su hövzələrində rast gəldikləri qanunsuz balıq ovu halları ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakulura Mərkəzinə və Daxili İşlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsinə məlumat verməyə və balıq ehtiyatlarının mühafizəsinə dəstək olmağa dəvət edir.

## Tovuzda iki nəfəri it dişlədi

**Tovuzda iki nəfəri it dişləyib. "Unikal"ın məlumatına görə, zərərçəkənlər rayonun Abulbəyli kənd sakini 65 yaşlı Elman Nəbiyev və Tovuz şəhər Xəqani küçəsində yaşayan 16 yaşlı Aybəniz Ələkbərovadır. Onlar it dişləmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Onlara yardım edilib, vəziyyətlərinin orta-ağır olduğu bildirilir.**

## Bağçalara yazılma prosesi dayandırıldı

**Sentyabrın 1-dən məktəbəqədər təhsil müəssisələrində qrupların komplektləşdirilməsi məqsədilə növbəyə yazılma prosesi müvəqqəti olaraq dayandırılır.**

Bu barədə APA-ya Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, qrupların komplektləşdirməsi prosesi 1-15 sentyabr tarixlərini əhatə edəcək. Komplektləşdirilmə prosesi yekunlaşdıqdan sonra isə uşaqların məktəbəqədər təhsil müəssisələrində boş yerlərə qəbulu il boyu davam etdiriləcək.

Qeyd edək ki, məktəbəqədər təhsil müəssisələrinə qəbul prosesi bq.edu.az portal vasitəsi ilə elektron formada həyata keçirilir.

## Güclü külək bu tarixədək davam edəcək

**Azərbaycanda avqustun 27-si saat 10:00-a olan məlumata əsasən əksər rayonlarda hava şəraiti əsasən yağmursuz keçib, lakin gecə Quba və Qusarda qısamüddətli yağış yağıb (1 mm).**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bir sıra ərazilərdə şimal-qərb küləyi əsir, küləyin maksimal sürəti Bakıda və Abşeron yarımadasında, eyni zamanda Culfada 21, Neftçalada 20 m/s-dək güclənir.

Ölkə ərazisində müşahidə olunan küləkli hava şəraitinin avqustun 29-u gündüzədək davam edəcəyi gözlənilir.

## Ağcabədidə iki avtomobil toqquşdu

**Ağcabədidə iki minik avtomobili toqquşub, iki nəfər xəsarət alıb.**

Teleqraf-ın Qarabağ bürosunun xəbərinə görə, hadisə ötən gecə rayonun Hacıbədəlli kəndi ərazisində baş verib.

Hərəkətdə olan "Mercedes" markalı avtomobil ötmə əməliyyatı edərkən "Lada" Priora markalı avtomobillə toqquşub. Nəticədə "Lada" markalı avtomobildə olan 2 nəfər xəsarət alıb. Yaralılar Ağcabədi Mərkəzi Rayon Xəstəxanasına çatdırılıblar. Faktla bağlı araşdırma başlanıb.



# İlham Əliyev Rusiya ilə bağlı bütün gerçəkləri açıqladı

## Dövlət başçısı Bakı-Moskva münasibətlərini dəyərləndirdi: “Bu hörmətsizliyə dözməyəcəyik!”

**“Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumlar başladı. İki insan qətlə yetirildi və işgəncələrə məruz qaldı. Sonra da rəsmi məlumata görə, onların ürək tutmasından öldüyü bildirildi. Hətta deyilənlərə görə, 20 il bundan əvvəl cinayət törətmiş olsalar belə, onlar insandır və onlarla belə davranılmamalıdır. Bu, nə münasibətdir?”**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində deyib.

“Onların sırasında Azərbaycan vətəndaşları, Azərbaycan mənşəli Rusiya vətəndaşları da var idi. Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi. Münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik”, - dövlət başçısı qeyd edib.

**Prezident müsahibəsində vurğulayıb ki, eyni zamanda Ermənistanın İran və Türkiyə ilə sərhədləri Rusiya sərhədçiləri tərəfindən qorunur**: “Azərbaycan torpağında bir nəfər də olsun rus əsgəri yoxdur. Beləliklə, Ermənistanda nə baş verə bilər, mən bunu bilmirəm. Lakin mən bu mənfi ssenari haqqında düşünmək istəmirəm”.

**Dövlət başçısı fikirlərini davam etdirərək İkinci Qarabağ müharibəsindən misal çəkib:** “Müharibənin sonuncu günündə - noyabrın 9-da Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmamalı idi. Çünki otuz il ərzində rus helikopterləri Ermənistan ərazisindən Azərbaycan sərhədinə heç vaxt yaxınlaşmamışdı. O, Ermənistandan uçaraq gəlirdi. Helikopteri vuranlar üçün açıq-aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onlar onu vurdular.

Həmin gün mən dərhal Rusiya Prezidentinə zəng etdim və üzrxahlığımı bildirdim. Biz həlak olan pilotların ailələrinə və Müdafiə Nazirliyinə dərhal təzminat ödədik. Biz istintaq başladıq və bu faciəli səhvə yol verənlər məsuliyyətə cəlb olundular. Lakin Rusiya tərəfindən belə addımların atıldığını görmədik.

Beləliklə, noyabrın 9-da baş verən bu faciəli hadisə və davranışımız bizi Azərbaycana qarşı eyni münasibətin sərgilənməsinə hazır etdi, çünki iki ölkə bir-birini dost adlandırır. Lakin bu, çox təəccüblü idi. Bu vaxtadək onlar nəyin baş verdiyini demirlər. Bu, əlbəttə ki, ikitərəfli münasibətlərdə ciddi məsələdir, lakin biz əlaqələri gərginləşdirmək istəmirdik.

Bəli, bu, xalqımızı məyus etdi, qəzəbləndirdi və qəmginliyə saldı. Biz gözləyirik ki, gec-tez istintaq başa çatacaq. Lakin sonra Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumlar başladı. İki insan qətlə yetirildi və işgəncələrə məruz qaldı. Sonra da rəsmi məlumata görə, onların ürək tutmasından öldüyü bildirildi. Hətta deyilənlərə görə, 20 il bundan əvvəl cinayət törətmiş olsalar belə, onlar insandır və onlarla belə davranılmamalıdır. Bu, nə münasibətdir?

Onların sırasında Azərbaycan vətəndaşları, Azərbaycan mənşəli Rusiya vətəndaşları da var idi. Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi. Münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik".

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a deyib ki, Prezident İlham Əliyev müsahibəsində çox aydın şəkildə Rusiya ilə münasibətlərin gərginləşmə səbəblərini göstərib:** “Hər kəsə aydındır ki, Azərbaycanın mülki təyyarəsinin Rusiya tərəfindən vurulması və Rusiya rəsmilərinin buna reaksiyası ölkəmizdə böyük məyusluq və təəssüf doğurdu. Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə Rusiya ilə münasibətlərin aktuallığını, həm də dövlət siyasətinin prinsipial xarakterini açıq şəkildə ortaya qoyur. Dövlət başçısı konkret faktlarla Rusiyada azərbaycanlılara qarşı baş verən zorakılıqları, işgəncələri və qətlləri diqqətə çatdırır. Burada əsas mesaj aydın şəkildə ifadə olunub - məsuliyyət Azərbaycanın üzərinə düşmür, lakin dövlət xalqının hüquqlarını qorumaq üçün konstruktiv və hüquqi yollarla reaksiya verir".

**Politoloq bildirib ki, noyabrın 9-da vurulan rus helikopteri və Rusiya tərəfindən Azərbaycan mülki təyyarəsinə açılan atəş diplomatik və hərbi səhvlərin ciddi nəticələr doğurduğunu göstərir:** “Helikopter hadisəsi zamanı Azərbaycan Prezidenti Rusiya Prezidentinə zəng edərək üzrxahlığını bildirmiş və həlak olan pilotların ailələrinə təzminat ödənmişdi. Bu, dövlətin məsuliyyət və şəffaflıq prinsiplərinə sadiqliyini nümayiş etdirir. Təyyarə hadisəsi isə həm hərbi, həm də diplomatik baxımdan ciddi bir gərginlik yaradıb”.

**Qabil Hüseynli əlavə edib ki, müsahibədə Azərbaycan-Rusiya münasibətləri çoxsəviyyəli, həm tarixi, həm də geosiyasi kontekstdə qiymətləndirilir:** “Azərbaycan tərəfi yalnız konstruktiv və hüquqi yollarla reaksiya verir, lakin xalqının hüquqlarına hörmətsizliyə göz yummur. Dövlət həm milli maraqları qoruyur, həm də diplomatik əlaqələri davam etdirməyə çalışır.

Bu müsahibə eyni zamanda Rusiya ilə strateji münasibətlərin mürəkkəbliyini və Azərbaycan dövlətinin prinsipial mövqeyini nümayiş etdirir. Hər hansı ikili standart və ya təcavüz halları qarşısında Azərbaycan dövləti susmayacaq, amma konstruktiv və hüquqi çərçivədə addımlarını davam etdirəcək. Azərbaycan-Rusiya münasibətlərindəki bu balans, prinsipiallıq və konstruktivlik dövlət siyasətinin əsas prioritetidir".

Prezidentin açıqlamaları göstərir ki, Azərbaycan yalnız xalqının haqlarını qorumaqla kifayətlənmir, həm də beynəlxalq standartları və strateji reallıqları nəzərə alaraq mövqeyini formalaşdırır.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**



## Mirzoyan: “Sülh müqaviləsinin ratifikasiyası planlaşdırılır”

**Vaşinqton razılaşmaları ilə Ermənistanla Azərbaycan arasında bundan sonra sülhün bərqərar olması qeydə alınıb. APA xəbər verir ki, bu barədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib.**

Onun sözlərinə görə, daha sonra sülh müqaviləsinin imzalanması və ratifikasiyası planlaşdırılır.

Nazir qeyd edib ki, infrastrukturun keçəcəyi Ermənistan ərazisi Ermənistana məxsus olacaq.

8 avqust 2025-ci ildə Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın Baş nazirinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri “Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in mətnini paraflayıblar.

## Şanxayda görüş olacaqmı? - Peskovdan açıqlama



**Kreml Çində Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putin arasında görüşün keçirilib-keçirilməyəcəyini şərh etməyib.**

Musavat.com xəbər verir ki, o, Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyevin görüşünün mümkünlüyü ilə bağlı suala belə cavab verib: “Hazırda biz ikitərəfli görüşlərin qrafikini hazırlayırıq. Bu görüşləri Çindəki tərəfdaşlarımız tərəfindən təşkil ediləcək ümumi tədbirlər planına daxil etmək lazımdır. Bu plan yekunlaşdıqdan sonra sizi məlumatlandıracağıq”.

Qeyd edək ki, ŞƏT sammiti 31 avqust - 1 sentyabr tarixlərində Çində keçiriləcək. Sammitə dəvət olunanlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Məsud Pezeşkian, Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Qasım-Comart Tokayev, Qırğızıstan prezidenti Sadır Caparov, Ermənistanın Baş naziri Nikol Paşinyan, Belarus Prezidenti Aleksandr Lukaşenko və digər liderlər var.

## Netanyahu qondarma genosidi tanıdı - Ankaradan reaksiya




**Türkiyə Xarici İşlər Nazirliyi (XİN) İsrailin baş naziri Benyamin Netanyahunun qondarma “erməni soyqırımı” ilə bağlı bəyanatını rədd edib.**

APA xəbər verir ki, Türkiyə XİN bununla bağlı bəyanat yayıb.

“Netanyahunun 1915-ci il hadisələri ilə bağlı açıqlaması keçmişdəki kədərli hadisələri siyasi istismara çəkməyə hədəflənmiş bir təşəbbüsdür. Fələstin xalqına qarşı törədilən soyqırımdakı roluna görə mühakimə olunan Netanyahu özünün və hökumətinin törətdiyi cinayətləri ört-basdır etməyə çalışır. Tarixi və hüquqi həqiqətlərə uyğun olmayan bu bəyanatı qınayır və rədd edirik”, - Türkiyə XİN bildirib.

Qeyd edək ki, İsrailin baş naziri Benyamin Netanyahu müsahibəsində İsrailin baş naziri olaraq “erməni soyqırımı”nı tanıdığını elan edib.

# "Kim düşmən münasibət bəsləyirsə, yeri göstərilməlidir"

## Sabir Rüstəmxanlı: "İlham Əliyevin Məsud Pezeşkian haqda "eyni qanı daşıyırıq" deməsi ondan xəbər verir ki..."



**Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə regiondakı yeni geosiyasi reallıqlar fonunda xüsusilə diqqət çəkib. Dövlət başçısı İranla münasibətlərdən, Zəngəzur dəhlizindən və yayılan dezinformasiyalardan ətraflı danışıb. Prezident qeyd edib ki, İran Prezidenti ilə çox yaxşı işgüzar və dostluq münasibətləri qurulub. Xatırladıb ki, İran Prezidenti Azərbaycana iki dəfə səfər edib: biri rəsmi səfər, digəri isə azad edilmiş Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak olub. İlham Əliyev həm də maraqlı detalı vurğulayıb: "O, mənim kimi eyni qanı daşıyır, biz eyni dildə danışırıq. Tərcüməçiyə ehtiyac yoxdur".**

Bu məqam iki ölkə liderləri arasında mədəni və mənəvi yaxınlığı göstərən simvolik bir mesaj kimi dəyərləndirilir. Prezidentin sözlərinə görə, Azərbaycan siyasətini yalnız İranın rəsmi mövqeyi - yeni prezidentin və xarici işlər nazirinin açıqlamaları əsasında qurur. Müxtəlif keçmiş rəsmilərin və ya müşavirlərin səsləndirdiyi iddialara isə Bakı əhəmiyyət vermir: "Onların dediklərinin bizim üçün əhəmiyyəti sıfırdır".

Prezident İlham Əliyev İran mətbuatında və bəzi dairələrdə yayılan şayiələrə də münasibət bildirib. Onun sözlərinə görə, Azərbaycanın nə İran-Ermənistan sərhədini bağlamaq, nə də Zəngəzuru işğal etmək kimi bir niyyəti olub: "Əgər etmək istəsəydik, bunu 2020-ci ilin noyabrında çox asanlıqla edə bilərdik. Sadəcə, 40 kilometr məsafədir. Amma belə bir planımız olmayıb".

Siyasi analitiklər bu açıqlamanı həm İrana, həm də regiondakı digər tərəflərə birbaşa mesaj kimi dəyərləndirir: Zəngəzur dəhlizi əməkdaşlıq üçün yeni imkan kimi nəzərdə tutulub, təhdid elementi deyil.

Mövzu ilə bağlı **Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı** "Yeni Müsavat"a qeyd edib ki, Azərbaycan Prezidentinin həm güclü lider, həm son dərəcə bacarıqlı siyasətçi, diplomat, həm də təcrübəli iqtisadçı olması, beynəlxalq münasibətləri dərindən anlaya bilməsi onu sevənlər, hətta sevməyənlər tərəfindən də etiraf edilir: "Dəfələrlə bunu müşahidə etmişik - həm Rusiya, həm də dünya mətbuatında. Son illərdə demək olar ki, hər biz geniş müsahibəsi ilə o, dinləyicilərini və oxucularını təəccübləndirməkdə davam edir.

Sonuncu ərəb telekanalına verdiyi müsahibə də həmin geniş, sanballı müsahibələrdən biridir. Burada təkcə Azərbaycan, Qarabağ, Azərbaycan-Ermənistan münasibətləri, Qarabağdakı quruculuq işləri və ya ABŞ-nin prezidenti Trampın başçılığı ilə Azərbaycan və Ermənistan arasında bağlanan müqavilədən söhbət getmir. Burada, ümumiyyətlə, həm Şərq-Qərb, həm Şimal-Cənub, həm müsəlman dünyası, həm də Türk dünyası ilə bağlı çox sayda maraqlı suallar var və bu suallara verilən cavablar da son dərəcə maraqlıdır. Hər bir sahə haqqında Prezidentin dedikləri dərindən analiz olunanda görünür ki, o, sahələrin bütün incəliklərini bilir və fikirlərini cəsarətlə ifadə edir. Yəni Ali Baş Komandan kimi cəsarətli, diplomat kimi də sözünü qətiyyətlə deyir".

**S.Rüstəmxanlı deyib ki, xüsusilə onun "qurbağalarla dolu bataqlıq mətbuatı" ifadəsi çox ləzzətlidir, çünki bu, yalnız beynəlxalq aləmə aid deyil**: "Dünyanın müxtəlif yerlərində biz də illər uzunu belə "bataqlıq qurbağaları"nın şahidi olmuşuq və oluruq. Bu proses davam edir. Bunlar açıq deyilməsə də, kim bizə düşmən münasibət bəsləyirsə, onun yeri göstərilməlidir və bunun başqa adı yoxdur. Ona görə də mən müsahibəni çox bəyəndim və böyük qürur hissi ilə oxudum".

**S.Rüstəmxanlının fikrincə, İlham Əliyevin Pezeşkian haqda dediyi fikirlər onun məsələlərə necə diqqətlə və həssaslıqla yanaşdığını göstərir:** "Doğrudan da Pezeşkian bir Azərbaycan türküdür və İlham Əliyev deyir ki, "biz eyni qanı daşıyırıq və bir millətin övladlarıyıq". Onlar öz ana dillərində danışırlar. Pezeşkian İranda da ara-sıra Azərbaycan dilinə müraciət edir. Bu artıq normal bir vəziyyətə çevrilir və İrandakı fars-şovinist ənənələrini yavaş-yavaş sarsıtmaq, yeni düşüncə sistemi yaratmaq işinə xidmət edir. Nəticəsi necə olacaq, bunu həyat göstərəcək. İranda illər uzunu televiziyalarda Azərbaycan rəsmiləri və ziyalıları haqqında yalan və böhtanlar yayıblar. Məsələn, aylar öncə Azərbaycana qarşı iddia irəli sürüldü ki, ölkəmiz İsrail-İran müharibəsində İsrailə dəstək verib və İranın əleyhinə hərbi müdaxilə olunub. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, Azərbaycan tərəfi bu müharibədə İran qarşı heç bir hərbi müdaxilə və ya proses həyata keçirməyib. Yəni etiraf edildi ki, Azərbaycanın mövqeyi düzgün olub və bu məlumat İran cəmiyyətinə çatdırılıb. Bunu ən yaxşı bilən İran rəsmiləridir - mətbuat və düşmən olanların nə dediyi əhəmiyyətli deyil, rəsmi İran yanaşması bu məsələni ciddi şəkildə təsdiqləyir və Prezident bunu yaxşı bilir. Ona görə də ölkələr arasında münasibətlərin məsuliyyətli şəkildə qurulmasını həm İran, həm də Azərbaycan üçün təmin edir və dünyaya bəyan edir. Bu, İranla qonşuluq və dostluq münasibətlərinin daha da genişlənməsinə şərait yaradır".

**S.Rüstəmxanlı İlham Əliyevin logistika məsələləri ilə bağlı, xüsusilə Zəngəzur dəhlizi barədə dediklərinə də diqqət çəkib:** "O, tarixi ekskursiya ilə izah edir - Zəngəzurun niyə Azərbaycan tərəfindən alındığını, sovet dövründə dəhlizə ehtiyac olmadığını, amma indi niyə zəruri olduğunu və bunun niyə həyata keçirilməli olduğunu dəqiq əsaslarla açıqlayır. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Prezidentinin mövqeyi, sadəcə, dövlətin maraqlarını qorumaqla kifayətlənmir, həm də haqqa, ədalətə və tarixi reallıqlara söykənir. Fikrimcə, hər bir ölkə vətəndaşı öz prezidentinin həm diplomatik, həm də tarixi biliklərlə zəngin müsahibəsini oxuyanda qürur hissi keçirməlidir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Deputat: "Qaz və işıq limitləri ləğv olunsun"



Azər Badamov

**Azərbaycanda qaz və işığa görə sabit tarif tətbiq olunacaq. Bu, Milli Məclisdə qəbul edilən "Qaz təchizatı haqqında" və "Elektroenergetika haqqında" qanunlarda öz əksini tapıb.**

Sözügedən qanunlara əsasən, istehlakçılar qaz və elektrik enerjisi təchizatı sisteminə qoşulan bütün sayğaclara görə aylıq 1 manat sabit tarif ödəməli olacaqlar. Yəni qaz və elektrik enerjisi işlətdin-işlətmədin sabit tarifi aybaay ödəmək lazım gələcək. Bu qaydanın 2026-cı il yanvarın 1-dən qüvvəyə minəcəyi gözlənilir.

Qaz və işığa görə sabit tarif tətbiq olunması fonunda qaz və işıq limitlərinin ləğvi gündəmə gələ bilərmi?

Qeyd edək ki, qaz və işığa bağlı limit 2016-cı ildən tətbiq edilib.

Hazırda aylıq elektrik enerjisi istehlakı 200 kilovat-saatadək olan istehlakçılar üçün ödəniş 8,4 qəpik, aylıq istehlak həcminin 200 kVts-dan 300 kVts-a qədər (300 kVts daxil) olan hissəsi üçün 10 qəpik, aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün 15 qəpik müəyyənləşdirilib.

Təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcminin 1200 m3-dək (1200 m3 daxil) olan hissəsi üçün 12,5 qəpik, illik istehlak həcminin 1200 - 2500 m3 olan hissəsi üçün 22 qəpik, illik istehlak həcminin 2500 m3-dən çox olan hissəsi üçün 30 qəpik müəyyən olunub.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Azər Badamov** Modern.az-a açıqlamasında bildirib ki, "Elektroenergetika haqqında" və "Qaz təchizatı haqqında" qanunlar dövlət başçısının fərmanı ilə təsdiq olunub: "Növbəti mərhələdə Tarif Şurası tərəfindən sabit tarifin məbləği müəyyənləşdiriləcək və bunun ardınca sabit tarifin tətbiqinə başlanılacaq. Yəni abonentlərin ödəyəcəyi məbləğin üzərinə onun enerjidən istifadə edib-etməməyindən asılı olmayaraq hər ay sabit tarif məbləği də əlavə olunacaq".

**Deputat qeyd edib ki, buna baxmayaraq, sabit tarifin tətbiqi heç də aylıq limitlərin ləğvi kimi başa düşülməməlidir:** "Qaz və işıq üçün limitlər qüvvədədir və abonentlər istifadə etdiyi enerjinin həcmindən asılı olaraq müəyyən limitlər çərçivəsində müəyyən olunmuş tariflə borcunu ödəyəcəklər. Amma çox istəyərdik ki, limitlər ləğv olunsun və bütün vətəndaşlar üçün məqbul orta bir tarif müəyyənləşsin. Bu da limitlərin tətbiqi ilə bağlı cəmiyyətdə artıq müzakirələrə son qoyar".



İşxan Saqatelyan

# Revanşistlərdən növbəti sayıqlama

**Ermənistan müxalifətinin tanınmış nümayəndəsi, "Daşnaksütyun" partiyasının təmsilçisi İşxan Saqatelyan yenidən Azərbaycana qarşı düşmənçilik dolu, revanşist bəyanatlarla çıxış edib.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, onun sözlərinə görə, 2 sentyabrda İrəvanın Azadlıq meydanında təşkil olunacaq mitinq guya qondarma rejimin "müstəqilliyinə" həsr olunacaq.

Saqatelyan çıxışında "Qarabağ məsələsinin həll olunmadığını", iddia edərək növbəti dəfə tarix və reallıqla ziddiyyət təşkil edən fikirlər səsləndirib. Saqatelyanın sözlərinə görə, hakimiyyətin Qarabağ məsələsini bağlanmış kimi təqdim etməsi - özünüaldatma deməkdir.

# "Prezidentin qərarını gözləmək lazımdır" - deputatdan sensasion müsahibə

## Qüdrət Həsənquliyev: "Sanki böyük dövlətlər arasında centlmensayağı razılaşma olub"

**Deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini, Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri Qüdrət Həsənquliyev "Yeni Müsavat"a geniş müsahibə verib. Millət vəkili gündəmin vacib məsələləri ilə bağlı sualları cavablandırıb, bir sıra sensasion fikirlər söyləyib.**



**- Qüdrət bəy, Bakı ilə Moskva arasında soyuq münasibətlər davam edir. Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvəsi çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin görüşü baş tuta, vəziyyətin müzakirəsi reallaşa bilərmi?**

- Görüşün baş tutması prezidentlərin iradəsindən asılıdır, amma çox istərdim ki, bu, baş versin və Rusiyanın Azərbaycana münasibətdə ikitərəfli münasibətlərin səviyyəsinə uyğun gəlməyən və soydaşlarımıza münasibətdə beynəlxalq hüquq normalarına zidd davranışı nəticəsində yaranmış gərginliyin aradan qaldırılması üçün addımlar atılsın. İlham Əliyev alman faşizmi üzərində qələbənin 80 illiyi ilə əlaqədar Moskvada təşkil olunmuş parada dəvət olunanda da bildirmişdim ki, Moskvaya səfər barədə qərarı Prezident verir, amma mən istərdim səfər baş tutsun, Rusiya prezidenti ilə birbaşa danışıqlarda tərəfləri narahat edən bütün məsələlər müzakirə olunsun. Rusiya ilə münasibətlərimizin daha da gərginləşməsini istəyən qüvvələr var. 2013-cü il prezident seçkisi öncəsi ölkəmiz əleyhinə Rusiyadakı hakimiyyətdaxili müəyyən qruplar Rusiyada "Milyarderlər İttifaqı", Azərbaycanda Rusiya vətəndaşı Rüstəm İbrahimbəyovun liderliyi ilə "Ziyalılar ittifaqı", "Milli Şura" yaradanda da, indi də qarşıdurmanın pik vaxtı bəzi xarici dairələrin və daxildəki marginallaşmış qrupların necə sevindiyini görürdük. Biz vətəndaşlarımızın rahat və müharibə təhlükəsi olmayan xoşbəxt həyatını təmin etməliyik. İnsanlarımız bütün həyatlarını gərginlik içərisində yaşamamalıdır. Rusiyanı inandırmalıyıq ki, bizə təzyiq etmək yox, bizimlə dost olmaq lazımdır, həm də sözdə yox. Rusiya keçmiş sovet resbublikalarının müstəqilliyi ilə barışmalıdır. Putin sinəsinə "SSRİ" yazmış Lavrovu zarafatla yox, həqiqətdə "imperialist" adlandırmalı, keçmiş sovet respublikaları ilə münasibətlərə ziyan vurduğu üçün cəzalandırmalı idi. Lavrov tarixin nostalgiyası ilə yaşayırsa, tarixi xatırlamaq istəyirdisə, Alyaskaya uçduğunu əsas götürüb sinəsinə "satılmış vətən" yazmalı idi. Yaxud Şərq istiqamətində uçduğunu nəzərə alıb, sinəsinə rus knyazlıqlarını 240 il əsarətdə saxlamış, mərkəzləşmiş rus dövlətinin yaranmasına yol açmış monqol-tatar dövləti "Qızıl Orda"nın adını yazmalıydı.

**- Vaşinqtonda ilkin sülh sazişi imzalanandan sonra bir çoxları dərhal Ermənistan-Türkiyə sərhədinin açılacağını gözləyirdi, amma bu, baş vermədi. Sizcə, niyə?**

- Görünür, böyük dövlətlər arasında hansısa centlmensayağı anlaşmalar var. Düşünürəm ki, bu məsələnin həllinə Azərbaycanın, Türkiyənin, ABŞ-nin və Rusiyanın razılığı lazımdır. Paşinyanın "dayısı", ABŞ demokratlarının təmsilçisi Sorosu indiki liderlərin heç biri xoşlamır. Böyük siyasətdə şəxsi münasibətlər xüsusilə ciddi əhəmiyyət kəsb edir. Əgər Paşinyan bir il ərzində hakimiyyətdən getməsə, onda sərhədlərin açılması ehtimalı arta bilər.

**- Tramp sülh danışıqları üçün Ukrayna və Rusiyaya iki həftə vaxt verdi. Sizcə, sonra nələr baş verə bilər?**

- Bu, Trampdan daha çox Putindən asılı olan məsələdir. Sonda, əvvəllər olduğu kimi, döyüş meydanındakı vəziyyəti nəzərə alıb nə olacağı barədə qərarı Putin verəcək. Ola bilsin Trampa deyəcək ki, "mənə bir az da vaxt lazımdır, bir müddət kənara çəkil, Ukraynaya silah satışına bacardıqca əngəl ol, Ukraynaya kömək edən ölkələrə təzyiq et, Ukraynanın daxilində böhran yarat" və s. İnanmıram ki, o, Şimali Koreya kimi, ABŞ-dən Ukrayna ilə vuruşmaq üçün əsgər göndərməsini istəsin. O, Trampa deyə bilər ki, bir müddət Venesuella ilə məşğul ol, cəmiyyətin başını qat. Ukrayna möcüzə gözləmədən tez bir zamanda müharibədən az itkilərlə çıxmağın yolunu tapmalıdır. Heç bir müqavilə əbədi deyil, bu günə qədər Rusiyanın Ukrayna ilə imzaladığı sazişlər kimi. Zelenski başa düşməlidir ki, qorxaq və bəzi riyakar "müttəfiqləri" ilə birlikdə Çinin, Hindistanın, çoxsaylı böyük dövlətlərin dəstək verdiyi Rusiyaya, ona nifrət edən Tramp və Putinə qalib gələ bilməz.

**- Bu arada Rusiyanın Azərbaycan üzərindən İrana qaz satmaq istəyi də ortaya çıxıb. Realdırmı?**

- Bəli. Azərbaycan da bundan istifadə edib, həm İrandan, həm də Rusiyadan tələb etməlidir ki, onlar da Transxəzər qaz kəmərinin çəkilməsinə mane olmasınlar. Siz bilirsiniz ki, uzun müddət idi, biz müstəqillik əldə edəndən sonra bu məsələ gündəmdə idi, İran və Rusiyanın etirazlarına görə bu kəmər Türkmənistandan Azərbaycana çəkilmirdi.

**- Azərbaycan indiki durumda Kremlin bu təklifinə müsbət qarşılıq versə, Qərbdən təzyiqlərə məruz qalmazmı?**

- Yox, mən hesab edirəm ki, bu, regional əməkdaşlıqdır və Azərbaycana lazımdır. Biz də bu və ya digər qərarı qəbul edəndə ilk növbədə öz dövlət maraqlarımızı əsas götürməliyik. Özü də bu tipli əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməyib yönəlir. Ona görə də əlbəttə, Qərbdə narazı qalanlar olacaq, amma önəmli olan bizim özümüzün maraqlarımızdır. Amma Azərbaycan mütləq tələb eləməlidir ki, bunun qarşılığında Transxəzər kəmərinin çəkilməsinə problem yaradılmasın. Biz bu şərti qoymasaq böyük bir şansın itirmiş olardıq. İndi artıq Türkmənistan hazırlaşır ki, Xəzər dənizinin sahilində İstilik Elektrik Stansiyası tiksin və Azərbaycan üzərindən Xəzər dənizinin, həmçinin Qara dənizin dibi ilə Avropaya elektrik enerjisi satsın. O cümlədən iki dövlət arasında qaz kəməri çəkilsin, cəmi 79 kilometrlik bir məsafənin birləşdirilməsi qalıb. Düşünürəm ki, bu dəfə biz tələblərimiz qəbul olunacaq.

**- Türkiyə də öz ərazisində Zəngəzur dəhlizinin tikintisinə başladı, amma Ermənistan hələ gözləyir. Prezident Vaşinqton görüşündən sonra işlərin sürətləndirilməsini vacib saymışdı və bunu Paşinyana ev tapşırığı hesab etmək olar. Sizcə Ermənistan ərazisində işlər nə zaman başlaya bilər?**

- Mən hesab edirəm ki, sanki böyük dövlətlər arasında centlmensayağı razılaşma olub. Paşinyan böyük dövlətlərin rəhbərlərinin heç birini qane eləmir. Ermənistanda elə bir adam hakimiyyətə gəlməlidir ki, o, həm Rusiya, həm Azərbaycan, həm Türkiyə, həm də ABŞ ilə normal münasibətlər qursun. Mən bilmirəm, gələcəkdə bu, kim olacaq...

**- Paşinyanın həbs etdirdiyi rusiyalı milyarder Samvel Karapetyanın Ermənistanda hakimiyyətə gəlmək şansı varmı?**

- Bilmirəm hakimiyyətə kim gələcək, amma həmin şəxsin Ermənistanda hakimiyyətə gəlməsi bütün tərəfləri qane etməlidir. Mənə elə gəlir ki, Türkiyə ilə Ermənistan arasında sərhədlər o vaxt açılacaq, ABŞ də Zəngəzur dəhlizinin açılması istiqamətində konkret addımlar atacaq. Məncə, hələlik görünür, bu məsələdə bir razılaşma yoxdur. Yəni böyük güclər razılaşdırandan sonra ola bilsin ki, bu proses sürətlənsin. Yaxud ola bilər elə Paşinyanın özü "möhkəm qoz" çıxsa, hakimiyyətini qoruyub-saxlaya bilsə, böyük güclər görsələr ki, o hakimiyyətini qoruyub saxlaya bilir və onun növbəti seçkilərdə uduzmaq ehtimalı çox azdır, o halda onlar əməkdaşlıq yolunu da tuta bilər. O zaman bir növ reallığla barışarlar və Paşinyanla işləmək qərarı verərlər. Xatırlayırsızsa, Zelenskini də devirmək istədilər, amma görəndə ki, alınmadı və xalq Zelenskinin ətrafında birləşdi, onda da Ukrayna prezidenti ilə davam etmək qərarı verildi.

**- Görünən budur ki, Paşinyan çox arxayındır. Hətta xalqa xitabən dedi ki, etirazınız varsa, inqilab edin...**

- Orada proseslərin necə gedəcəyini deyə bilmərəm. Amma Paşinyan, əlbəttə, müəyyən uğurlara nail olub. Artıq ölkəsində adambaşına düşən ümumi daxili məhsulun həcmi 10 000 dollara yaxınlaşır. Bu, çox böyük bir iqtisadi göstəricidir, bu əhalinin sosial vəziyyətində özünü göstərir. Tutaq ki, Avropaya vizasız gediş-gəlişə nail olsa, Azərbaycanla yekun sülh sazişini imzalasa, Türkiyə ilə sərhədlər açılsa, onun reytinqini daha da artar. Artıq mən hesab edirəm ki, Vaşinqton Bəyannaməsini imzalamaqla o, xeyli dərəcədə nüfuzunu artırdı. Ona görə ki, Vaşinqton bəyannaməsində tərəflər bir-birinin ərazi bütövlüyünü tanıdığını Almatı bəyannaməsindən sonra növbəti dəfə elan etdilər. Özü də Amerikanın iştirakı ilə, Amerika Prezidentinin imzası ilə. Hücum etməmək haqqında da öz üzərlərinə öhdəlik götürürlər. Amma görürsünüz ki, indi Amerika da hələlik kommunikasiya xətlərinin qısa bir müddətdə açılmasında istəkli görünmür. Əks halda, elə o sənəd imzalanandan dərhal sonra Türkiyə ilə də danışardı ki, indi heç olmasa, siz sərhədləri açın. Azərbaycan da buna etiraz eləməzdi. Ona görə ki, biz artıq sülh, barış yolu tutmuşuqsa, revanşistlərin hakimiyyətə gəlməsi yox, Paşinyanın hakimiyyətdə qalması bizi daha çox qane edir və biz də onun mövqeyinin gücləndirilməsi üçün müəyyən addımlar atmalıyıq.

**- Amma ən mühüm ev tapşırığına əməl olunmayıb, konstitusiya dəyişikliklərinə...**

- Mən müsahibələrimin birində söyləmişdim ki, hətta konstitusiyanın dəyişdirilməsi ilə bağlı tələbi Ermənistan qəbul etdiyi üçün Azərbaycan sülh sazişini imzalaya bilər. Əgər istəyiriksə ki, Paşinyanın mövqeləri güclənsin, orada rusiyayönümlü revanşistlər hakimiyyətə gəlməsin, bu addımı ata bilərik. Mən hesab edirəm ki, bu zəruratdir. Amma biz bilmirik axı, böyük güclərin pərdə arxasında hansı razılaşmaları var. Beynəlxalq siyasətdə bir çox məsələlər publik yox, bağlı qapılar arxasında danışılır, razılaşdırılır. Ona görə də bu məsələlərdə daha çox ölkə Prezidentinə güvənmək lazımdır.

**- Sözsüz. Kəlbəcərdəki çıxışında Prezidentin xəbərdarlıqları da mühüm məqam idi.**

- Prezident Paşinyana xəbərdarlıq eləmirdi. Mənə elə gəlir ki, Prezident revanşistlərə və onların arxasında duranlara, o ölkədə sülh istəməyən qüvvələrə xəbərdarlıq edirdi. Paşinyan özü sülh sazişi üçün zəruri addımları atmır. Paşinyan qorxur ki, regionda sülh istəməyən böyük dövlətlər var,onlar bu addımına görə ona qəzəblənər və onu cəzalandırar. Ona görə bizim də qabağa düşməyimizin adı yoxdur. Prezidentin hansı qərar qəbul edəcəyini gözləmək lazımdır. İnanmaq lazımdır ki, o, Azərbaycan üçün doğru olan nədisə, onu edəcək. Hələlik o şərtdən imtina etmiriksə, deməli, belə lazımdır. Ona görə yenə də söyləyirəm ki, böyük siyasətdə bir çox məsələlər bağlı arxasında danışılır və razılaşdırılır.

***P.S. Müsahibənin tam mətnini Musavat.com-dan oxuya bilərsiniz.***

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 152(8762) 28 avqust 2025

# Ermənilər Azərbaycan-Rusiya gərginliyini niyə istəyir?

**"Rusiya və Azərbaycan birgə iş üçün istiqamətləri müəyyənləşdirib. Enerji sahəsində əməkdaşlıq və nəqliyyat əlaqələrinin inkişafı prioritetdir". Bunu iki ölkə arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Həştərxanda keçirilən 23-cü iclasında Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib. Bu görüşdən sonra Ermənistanda bir narahatlıq yaranıb.**



İrəvan Azərbaycanla Rusiyanın yaxınlaşmasından həyəcanlanıb. Erməni tərəfi ümid edirdi ki, münasibətlərin pisləşməsindən istifadə edə bilər. Amma Həştərxanda keçirilən görüş gözləntiləri puç edib. Bu barədə armenianreport yazır: "Erməni cəmiyyətində və siyasi dairələrində tez-tez "Rusiya Cənubi Qafqazı nəhayət ki, itirdi" fikrini eşitmək olar. Ancaq son hadisələr göstərir ki, bu cür söhbətlər reallıqdan çox arxayınlığa bənzəyir. Avqustun 23-də Rusiya və Azərbaycanın xarici işlər nazirləri - Sergey Lavrov və Ceyhun Bayramov arasında telefon danışığı olub. Bu cür müntəzəm təmasların olması faktı onu deməyə əsas verir ki, Moskva və Bakı bir-birindən uzaqlaşmaq fikrində deyil. Ancaq bu hamısı deyil. Həştərxanda iqtisadi əməkdaşlıq üzrə Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının iclası keçirilib. Aleksey Overçuk və Şahin Mustafayev komissiyanın 23-cü iclasının yekunlarına dair protokol imzalayıblar. Bu, formallıq deyil, iqtisadi əlaqələrin dərinləşməsi üçün konkret vasitədir".

Göründüyü kimi, erməni mediası bu əlaqələrdən keçirdiyi ağrıları hiss etdirib. Sözügedən portal daha sonra qeyd edir: "Ola bilsin ki, yaxın gələcəkdə iki ölkə arasında münasibətlərin tədricən istiləşməsinin şahidi olacağıq. Bəli, bir həftə əvvəl qeyri-mümkün görünən şey baş verə bilər. Son illərdə eşidilən bütün qarşılıqlı qınaqlar tez bir zamanda keçmişə çevrilə bilər. Və sonra rus təbliğatçıları yenidən Azərbaycan barədə güclü və müstəqil dövlət nümunəsi kimi danışacaq. Və belə olan halda sual yaranır: Ermənistan nə etməlidir? Açığı, Qərbə birtərəfli "stavka" özünü doğrultmur. Həm Rusiyanın maraqlarını, həm də Avropanın imkanlarını nəzərə alan balanslaşdırılmış xarici siyasət qurmaq daha ağıllı olardı".

Azərbaycan-Rusiya münasibətlərində gərginliyin qismən azalması Ermənistanı niyə narahat edir? İrəvan Bakı ilə Moskva arasında gərginlikdə nə üçün maraqlıdır və bundan necə istifadə edə bilər?

**Politoloq Xəyal Bəşirov** "Yeni Müsavat"a bildirdi ki, bu gərginlik tam aradan qalxmasa da, təyyarə hadisəsi ilə bağlı tələblərimizə lazımi cavab verilməsə də, Rusiyanın Azərbaycana ehtiyacı var: "Bu ehtiyac Rusiyanın Qərb dünyasından təcrid olunduğu bir vaxtda daha da artır. Burada dövlətlərarası münasibətlərdən söhbət getmir. Bu gün Rusiya Ukrayna müharibəsinə görə təbii sərvətlərini, enerji məhsullarını dünya bazarına çıxara bilməmək problemini yaşayır. Təbii ki, bu, həm də Azərbaycanla münasibətlərin yaxşı olması zərurətini, aktuallığını meydana gətirir. Rusiyanın Azərbaycana daha çox ehtiyacı var, Ermənistana isə ehtiyacı yoxdur. Ermənistan Rusiyaya hazırda hərbi bazasının yerləşdirilməsi baxımından bir ərazi olaraq lazımdır. Yeni reallıqlar Azərbaycanla gərginliyin uzun müddət davam etməsini Rusiya üçün zərərli prosesə çevirir. Ermənistan isə faktiki olaraq hələ də Rusiyadan qidalanır".

**Politoloq qeyd etdi ki, Azərbaycanın Rusiya üçün əhəmiyyətinin get-gedə artdığını Ermənistan görür və narahatlıq keçirir:** "Son zamanlar Rusiya-Azərbaycan münasibətlərində müşahidə olunan gərginliklər erməniləri sevindirməyə başlamışdı. Ermənilər hesab edirdilər ki, bu gərginlik ən kəskin fazaya qədər yüksələcək və bərpası mümkünsüz hala çatacaq. Belə vəziyyətdə Rusiyanın Ermənistana ehtiyacı yaranacaq, Rusiya Ermənistana "arxanda dayanmışam Azərbaycana qarşı hücuma keç" kimi göstəriş verəcək. Ermənilər Birinci Qarabağ müharibəsində baş verənlərin təkrarlana biləcəyi arzusuna düşməyə başlamışdılar. Onlar hesab ediblər ki, Rusiyanın Azərbaycanla münasibətlərinin gərgin olması Ermənistanın Moskvanın qucağında daha çox oturmasını və Rusiyanın Ermənistanı daha çox qucaqlamasını şərtləndirir. Lakin erməni mediası nahaqdan ümidləndiyinin fərqinə varmağa başlayıb. Buna görə də Rusiya-Azərbaycan münasibətlərinin düzəlmə xətti götürməsindən dilxor olduqlarını gizlətmirlər".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Qonşumuzdan yeni savaş anonsu - bu dəfə...

## Bölgənin fitili yenidən çəkilir - analitiklərin gözləntisi

**"İran İsrailin yeni hücumu halında cavab verməyə tam hazırdır". "Mehr" agentliyi xəbər verir ki, bunu İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı Məhəmməd Pakpur bildirib.**



Pakpur qeyd edib ki, İran ordusu yeni təcavüz halında İsrailə daha da sarsıdıcı cavab vermək üçün tam döyüş hazırlığındadır.

"12 günlük müharibədə qarşı tərəf (İsrail-ABŞ) iranlıların təslim olmayacağını anladı". Bunu isə İranın Ali Milli Təhlükəsizlik Şurasının sədri Əli Laricani deyib. "Mənim məsləhətim odur ki, İran heç vaxt diplomatiyadan əl çəkməsin, çünki diplomatiyanın özü bir vasitədir. Danışıqlar o zaman nəticə verir ki, qarşı tərəf müharibənin yaxşı bir şey olmadığını başa düşüb, məsələləri danışıqlar yolu ilə həll etmək istəyir. Lakin onlar danışıqlardan başqa addımlar atmaq üçün istifadə etmək istəyirlərsə, bu, düzgün addım deyil", - o bildirib.

Laricani İran və İsrail arasında növbəti müharibənin olub-olmayacağı sualına cavab verərkən vurğulayıb ki, bu sualın cavabı qismən İran, qismən də İsraildən asılıdır, müharibə hələ bitməyib, hər addıma hazır olmaq lazımdır.

"Hiss olunur ki, İran-İsrail müharibəsinin ikinci mərhələsi yaxınlaşır. İran qisasa hazırlaşır və iranlılar bu rəzalətə uzun müddət dözə bilməzlər". İsrailin keçmiş təhlükəsizlik rəsmisi Jak Neriya deyib. Neriya Bəşər Əsədin devrilməsinin İran üçün ağır itki olduğuna diqqət çəkib: "Suriyalılar İsrail cəbhəsində sülh istəyirlər. Bu, strateji bir addımdır, İsrail Əhməd əş-Şaara hakimiyyəti vasitəsilə Dəməşqin İranın İsrail ətrafında yaratdığı təzyiq halqasını qıra bildi. Bəşər Əsədin devrilməsi həm də "Hizbullah"ın regional qüvvə kimi süqutuna səbəb oldu. Buna görə də İran Şaara hakimiyyətinin devrilməsini istəyir".

Xatırladaq ki, İsrail iyunun 13-də İrana qarşı hərbi əməliyyata başlayıb və məqsədi İranın nüvə proqramını məhv etmək olub. Buna cavab olaraq İran İsrailə zərbələr endirib. Daha sonra iyunun 22-də ABŞ İrandakı üç nüvə obyektini vurub: Fordo, İsfahan və Natanz. Bundan sonra ABŞ Prezidenti Donald Tramp İran və İsrail arasında atəşkəs elan edib.

Son bəyanatlar yeni müharibə gözləntisini artırır. Bu dəfə İrana hücumlar nə ilə nəticələnə bilər? 12 günlük savaşda generallarını, Baş Qərargah rəisini, alimlərini öldürən İsrailin rejimi tamamilə demontaj etməsi realdırmı, yoxsa Tramp növbəti müharibəyə imkan verməyəcək?

**Siyasi şərhçi Azər Həsrət** "Yeni Müsavat"a bildirdi ki, İranda yeni bir müharibənin alovlanması Azərbaycan və region üçün arzuolunmazdır: "Çünki bu müharibədən əziyyət çəkən həm də bizim soydaşlarımız olur. Amma İranı idarə edən fars-molla rejimi də dilini dinc qoymalıdır, İsraillə münasibətdə diqqətli olmalıdır. Çünki İsrail birincisi, meydanda tək deyil, onun arxasında ABŞ kimi dünyanın bir nömrəli qlobal gücü var. ABŞ təbii ki, hazırda və bundan sonra İsrailin arxasında dayanacaq. İkincisi, 12 günlük müharibə göstərdi ki, SEPAH və rejimin mühafizəkarları nə qədər yekə-yekə danışsa da İsrailin qarşısında acizdirlər. Belə bir durumda olan dövlətin ali dini rəhbərliyi və onların tabeçiliyində olan SEPAH təmsilçiləri ritorikalarını dəyişməlidir. Onlar İsrailə cavab verə biləcək gücdə olsaydılar əllərində o fürsət var idi, həmin cavabı verə bilərdilər. Bununla da məsələ qapanardı. Yalandan bir qələbə paradı keçirdilər. Amma real cavab verə bilmədilər. Üstəlik də nəzərə almaq lazımdır ki, payıza doğru İsrailin İrana yeni hücumları proqnozlaşdırılır. Belə bir durumda İran mənə elə gəlir ki, vəziyyəti gərginləşdirən açıqlamalardan çəkinməlidir".

**Siyasi şərhçi hesab edir ki, İran ali dini rəhbərliyi bu müharibənin baş verməməsi üçün fikirlər səsləndirsə daha məqsədəuyğun olar:** "Bunun əksini etsələr, təbiidir ki, İsrailin qorxacağı bir şey yoxdur. Üstəlik, İranın bir dövlət kimi ləğv edilməsi haqqında daha çox danışılmağa başlanıb. Belə bir şəraitdə İran rəhbərliyi daha ağıllı davranmalıdır. Lakin yenə də inadkarlıqlarından əl çəkmirlər. Gərəksiz inadkarlıq və addımlar ona gətirib çıxaracaq ki, İran bir dövlət kimi missiyasını başa vuracaq və yerində yeni müstəqil dövlətlər qurulacaq".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, 12 günlük İran-İsrail müharibəsindən sonra nisbi sakitlik sürsə də **müxtəlif bəyanatlar savaş ehtimallarının artdığını göstərir:** "Hər iki tərəf sanki müharibəyə hazır olduğunu ifadə edir ki, bu da çox təhlükəli ssenaridən xəbər verməkdədir. Xüsusilə İran bildirir ki, İsrailin hücumları kontekstində çox qətiyyətli cavablar veriləcək. Hesab edirəm ki, yeni müharibə İran üçün daha acı nəticələr doğura bilər. Şübhəsiz ki, İran 12 günlük müharibədə olduğu kimi İsrail tərəfinə adekvat cavab tədbirləri görəcək. Şübhə etmirəm ki, İran ordusunun döyüş hazırlığının artırılması prosesi aparılıb. Lakin İsrail kəşfiyyatı çox dəqiqliklə İranın yüksək vəzifəli generallarını, nüvə alimlərini məhv etdikdən sonra bu hadisə İran ordusunun mənəvi-psixoloji durumuna mənfi, İsrail ordusununkuna isə müsbət təsir göstərib".

**Ekspert qeyd etdi ki, hazırda ABŞ-nin mövqeyi böyük maraq doğurur:** "Çünki Donald Tramp özünü sülhsevər prezident kimi təqdim edir, hətta Nobel sülh mükafatı almaq niyyətini də onun komandası bildirir. Ona görə də ehtimal etmək olar ki, İranla genişmiqyaslı yeni bir müharibəyə Tramp icazə verməyəcək. Ancaq bu da danılmaz faktdır ki, sanki İsrailin baş naziri Benyamin Netanyahunun dövründə İsrailin bütün istəkləri cavabsız qalmır, bütün istəkləri təmin olunur. Bu baxımdan müharibənin olma ehtimalı yüksək görünür".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Bakının Trampdan daha bir kritik gözləntisi

## ABŞ lideri mürtəce 907-ci düzəlişin ləğvi üçün Konqresi ram edə biləcəkmi? - mövqe

**“ABŞ Prezidenti Donald Tramp tərəfindən "907-ci düzəliş"in ləğvi barədə sənəd Prezident İlham Əliyevin iştirakı ilə imzalandı”.**

Bunu Nazirlər Kabinetində keçirilən Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclasda xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib ki, bu addım Azərbaycan-ABŞ tərəfdaşlığının real mahiyyətini əks etdirir: “Ümidvarıq ki, Prezident Trampın komandası bu düzəlişin tamamilə ləğvi üçün Konqreslə iş aparacaq”.

Amma Konqresin ləğvi üçün Trampın siyasi iradəsi və respublikaçıların təsiri ciddi faktordur. Çünki Demokratlar müqavimət göstərəcəklər. Onlara himayədarlıq edən erməni lobbisi də buna əngəl olmağa çalışacaq. Odur ki, Bakının ciddi gözləntisi var.

Ümumiyyətlə, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğv olunması və strateji əməkdaşlıq formatına başlanması tarixi hadisədir. Bu düzəlişin məhz Prezident İlham Əliyevin iştirakı ilə ləğv edilməsi son dərəcə tarixi və rəmzi xarakter daşıyır. Hazırda donor ölkəyə çevrilən Azərbaycanın xarici dəstəyə, yardıma ehtiyacı yoxdur. Ona görə də Prezident Trampın bu qərarı rəmzi xarakter daşımaqla yanaşı, həm ədalətin bərpası, həm də Prezident Tramp tərəfindən Azərbaycan üçün siyasi jestdir.

“Yeni Müsavat” yada salır ki, 1992-ci ilin oktyabrında Ermənistanın lobbi qruplarının təsiri altında olan konqresmenlərin təşəbbüsü ilə qəbul olunan bu ədalətsiz qərar ölkəmizi ABŞ-nin birbaşa dəstəyindən məhrum etdi və respublikamız sanksiyalara məruz qalmışdı. ABŞ hökumətinin Əfqanıstanda dəstəyə ehtiyacı olduğuna görə Azərbaycan bu dəstəyi nəqliyyat vasitəsilə onlara təqdim etdiyi üçün sonradan bu düzəliş hər il müvəqqəti olaraq dayandırılırdı. 2023-cü ildə Bayden administrasiyasının həmin sanksiyaları yenidən Azərbaycana tətbiq etməsi mənfi münasibətin və yanaşmanın kulminasiyası idi.

"907-ci düzəliş" Azərbaycana ABŞ hökumətindən birbaşa yardım göstərilməsini qadağan edirdi. Məhz bu sənədlə humanitar yardımlar istisna olmaqla, Vaşinqtonun Bakı ilə iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığı məhdudlaşmışdı. Ermənistan və Gürcüstan ABŞ-dən milyonlarla dollar dəyərində dəstək aldığı halda, Azərbaycan bu imkanlardan qərəzli şəkildə məhrum olunmuşdu. "907-ci düzəliş"in tam ləğvi yalnız siyasi jest deyil, həm də gecikmiş ədalətin bərqərar olması deməkdir.

Xüsusilə Zəngəzur dəhlizinin istismarı məsələsində ABŞ-nin iştirakı birbaşa olacaq. Bu baxımdan, "907-ci düzəliş"in ləğvi həm Azərbaycan-ABŞ münasibətləri, həm də Cənubi Qafqazda Azərbaycan-ABŞ-Ermənistan əməkdaşlığı üçün yeni imkanlar açacaq. Bu da, təbii olaraq, müsbət və strateji baxımdan əhəmiyyətli bir hadisə kimi dəyərləndirilə bilər.

Bundan əlavə, ABŞ Hesablama Palatasının məlumatına görə, 2002-2020-ci illərdə Azərbaycan təxminən 808 milyon dollar yardım alıb, onun 164 milyonu yalnız prezidentin istisna səlahiyyəti sayəsində mümkün olan “təhlükəsizlik” istiqamətlərinə sərf olunub. Məhz buna görə 2025-ci il avqustun 8-i sadəcə diplomatik təqvimdə bir tarix deyil. Bu, köhnə baryerlərin yeni etimad səviyyəsinə yol verdiyi, Cənubi Qafqazın isə Vaşinqtonun Bakı ilə strateji tərəfdaşlıq qurmağa sözdə deyil, real layihələr və siyasi təminatlar əsasında hazır olduğunu nümayiş etdirdiyi məqamdır.




**Professor Qabil Hüseynlinin “Yeni Müsavat”a bildirdiyinə görə, sözügedən qanun mürtəce bir qərardır və dünyanın ən ədalətsiz nəticələrindən biridir:** “Tarixdə görünməyib ki, işğala məruz qalan ölkəyə hərbi yardımlar qadağan olunsun. O vaxtkı Amerika rəhbərliyi bu ləyaqətsiz addımı atıb. Bu sənəddə Baydenin xüsusi iştirakı var. Bu adam ermənipərəst idi və layihənin müəlliflərindən biridir. Ona görə də Azərbaycan torpaqlarını azad etməklə Amerikası, Rusiyası, Fransası başda olmaqla, dünya ictimaiyyətinə bu məsələlərdə bir dərs keçdi. Beynəlxalq ictimaiyyət haqlı ilə haqsızı ayırd etmək istəmədi. Bu gün də ermənilərə qahmar çıxanlar var. Onları ABŞ-də, Avropada çox görmək olar. Sadəcə, Azərbaycan bu qüvvələri haqlı addımları ilə susdurub”.

**Onun fikrincə, “907-ci düzəliş” adlanan axmaq sənəd ABŞ adına rüsvayçılıqdır:** “Bu qərarın hələ də yaşaması demokratik ölkə adına biabırçılıqdır. Axı harada görünüb ki, işğalçı deyil, torpağı yağmalanan tərəf sanksiyaya məruz qalsın? Bu qərar dünya tarixində ən absurd addımlardan biridir. İndi yeni hakimiyyət Azərbaycanla dostluq əlaqələri qurur. Biz inanırıq ki, hazırkı ABŞ rəhbərliyi Konqresə təsir edəcək. Düzdür, Konqresin bir qanun layihəsini ləğv etməsi müşkül məsələdir, amma mümkündür. Bunun üçün siyasi iradə və obyektiv yanaşma lazımdır”.

**Professor qərar ləğv edilməsə belə, Azərbaycanın bundan zərər görməyəcəyini düşünür:** “Biz müasir silahlar alırıq. Azərbaycana "907-ci düzəliş" əngəl ola bilmir. Vətən torpaqlarını azad edəndə də bu sanksiya yolumuzda hasar ola bilmədi. Yənı işləməyən, əhəmiyyətsiz sanksiyadır. Bununla belə, ədalətin yerini tapması üçün onun ləğvi mütləqdir. Dünya ictimaiyyətinə də, Amerika siyasətində olanlara da, erməni lobbisinə də dərs olmalıdır ki, ədalət gec də olsa yerini tapır”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Minsk Qrupunun “dəfn günü” açıqlandı - gözlər ATƏT-də

## Müharibədən sonra “süni nəfəs aparatına qoşulan” həmsədrlər institutunun ləğvinə sayılı günlər qalıb - daha bir son...

**“Ümumilikdə ABŞ-də sülh sazişinin imzalanması əvəzinə məhz paraflanması Azərbaycanın mövqeyinin ardıcıllığını ortaya qoyur”. “Yeni Müsavat” bildirir ki, bunu Nazirlər Kabinetində keçirilən Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclasda xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib ki, ATƏT-in Minsk Qrupu və əlaqədar strukturlarının bağlanması ilə bağlı müraciət ATƏT ölkələri arasında yayılıb və 1 sentyabrda qərarın qəbulu gözlənilir.**




Həmsədrlər institutu çoxdan “gorbagor” olub. Geosiyasi reallıqlar və Qarabağda münaqişənin həlli missiyanı əhəmiyyətsiz edib. Onsuz da bu format missiyasını yerin yetirə bilməmişdi. 44 günlük müharibə isə onun lazımsız olduğunu bird daha sübut etdi. Rusiya xarici işlər naziri Sergey Lavrov bu günlərdə “Helsinki Aktının yarım əsri: gözləntilər, reallıq, perspektivlər” adlı məqaləsində də Qarabağ münaqişəsinin nizamlanmasında ATƏT-in Minsk Qrupunun uğursuzluğunu vurğulayıb. Ukrayna böhranı “soyuq müharibə”yə səbəb olduğuna görə həmsədr ölkələr arasında uçurum yaradıb. Bu da Minsk Qrupunun de-fakto ləğvinə gətirib çıxarıb. Bundan sonra de-yure demontajı qalıb. Nazirin də dediyi kimi, 1 sentyabr ləğv günü olacaq.

Bu mövzuda “Xalq” qəzetinə danışan **politoloq Zaur Məmmədov** bildirib ki, Ermənistanla Azərbaycan arasında onilliklər boyu aparılan danışıqların nəticəsiz qalması əslində həm işğalçı dövlətin destruktiv mövqeyindən, həm də vasitəçi ölkələrin ədalətsiz siyasətindən qaynaqlanırdı: “Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan bir qarış torpaq qaytarmaq niyyətində deyildi, Minsk Qrupunun həmsədrləri isə real həll yolları axtarmaq əvəzinə, status-kvonu möhkəmləndirmək üçün çalışırdılar. Bu ölkələrin biri Ermənistana silah verirdi, digəri siyasi dəstək göstərirdi, üçüncüsü isə beynəlxalq müstəvidə imtiyazlar tanıyırdı. Nəticədə işğal faktiki olaraq legitimləşdirilməyə cəhd edilirdi. Əgər vaxtında Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, əgər ona milyardlarla dollar dəyərində pulsuz silahlar verilməsəydi, münaqişə çoxdan sülh yolu ilə həll edilə bilərdi. Lakin beynəlxalq güclərin ikili standartları Azərbaycanın haqq işini çətinləşdirdi”.

Politoloq deyib ki, buna baxmayaraq, güclü iqtisadiyyatın qurulması, ordunun modernləşdirilməsi və xalqın sarsılmaz iradəsi sayəsində 2020-ci ildə tarixi Zəfər əldə olundu. Bu gün həmin ədalətsiz mövqelər iflasa uğrayıb, Azərbaycan isə ərazi bütövlüyünü və suverenliyini təmin edib.

“Yeni Müsavat”a gözləntilərini bölüşən siyasi **ekspert Züriyə Qarayeva** qeyd edib ki, Minsk Qrupu süni nəfəs aparatına qoşulmuşdu və sentyabrın 1-də ondan ayrılacaq: "Çünki onun yaşadılması orqanik proses deyildi. Həmsədr ölkələrin heç biri münaqişənin həllinə nail olmadı. Azərbaycan Ordusu və diplomatiyası zəfər qazandı, Minsk Qrupunun ləğvini şərtləndirdi. Əks halda, güc mərkəzləri hələ də onun fəaliyyətində maraqlı deyildi. Onlar bu münaqişədən istifadə edərək Cənubi Qafqazda varlıqlarını qoruyur, nüfuz savaşı aparırdılar. Ümumiyyətlə, Minsk Qrupu formatı ölümə məhkum idi. Onun 30 ildə vasitəçi kimi faydası olmadı. Əslində məlum oldu ki, elə bu ölkələrin problemin həllində ciddi əngəli var. Hər üç ölkədən həmsədrlər səyahətə gəlir, keçmiş “təmas xətti”ndə yalandan baxış keçirir və gedirdilər. Bütün bu oyunlara rəşadətli Ordumuz son qoydu və indi də həmin missiya tarixin zibilliyinə qovuşmağa layiqdir".

**Z.Qarayeva bildirib ki, son razılaşmalar Minsk Qrupunun ləğvini sürətləndirib:** “ABŞ-də əldə olunan nəticə və Trampın təşəbbüsü ilə baş tutan razılaşmalar bu missiyanın rəsmi ləğvini yaxınlaşdırdı. Paşinyan isə Ağ Ev görüşünə qədər bəhanə axtarır, Minsk Qrupu ilə bağlı qərarın yekun sülh sənədindən sonra verilməsi təklifini irəli sürürdü. Amma avqustun 8-də baş tutan zirvə və anlaşma Minsk Qrupunun ləğvinə möhür vurdu. Artıq bu missiya ömrünü miskin şəkildə başa vurmaqdadır”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025



# Sildin yaddaşımdan xatirələri

Zamin HACI
zaminhaci@gmail.com

## (iqtisadi-sosial analiz)

**Dünən internetdə qonşu ölkələrimizdən birindən, konkret yazsam, Ermənistanın Gümrü şəhərindən Kiprin Larnaka şəhərinə uçan təyyarənin bilet qiymətini gördüm. 15 avro. Bizim pulla 30 manat. Şok oldum. Ermənilərə yazığım gəldi. Sülhü tezləşdirməliyik.**

Təbii ki, biz belə ucuz-mucuz qiymətlərlə yaşaya bilmərik, qoy xaraba qalmış, el dilində yazsam, "deşovka" ölkələr ucuz şəkildə ora-bura getsinlər. Biz özümüz Biləcəridən Bakımızdakı aeroportumuza yollanarkən (maşallah, indi o qədər çox hava limanımız var, gərək adını xüsusi yazasan) taksiyə bəzən 30 manat veririk.

Bunlar hamısı yaxşı yaşayışın əlamətləridir. Təzəlikcə İsveç hava limanında azərbaycanlı ailənin çantasından çıxanların videosu dünyada yayılmışdı. Soydaşlarımız ana yurdu tərk edərkən Stokholma özləri ilə 9 kilo quzu əti, 6 kilo süd məhsulu, 3 kilo meyvə aparırmış. Niyə? Çünki İsveçdə Beyləqan quzusu yoxdur. O cümlədən çanaq pendiri, Qazax qurudu, motal, Göycə alçası, Salyan heyvası, Bakı ənciri, Füzuli qozu, Sabirabad qarpızı, Xaçmaz pomidoru və sairə. Qəddar isveçli gömrükçülər isə məhsulların hamısını müsadirə etdilər, hələ minnət qoydular: "Bu dəfə əfv edirik, növbəti dəfə cərimə olunacaqsınız".

Ancaq bizim tamojna səxavətlə icazə vermişdi. Guya onlar bilmirdi ki, İsveçə təyyarədə o qədər ət-süd aparmaq qadağandır? Sadəcə, yumşaqlıq, insanseverlik göstərmişlər.

Bir məsələ də var ki, artıq bizdə ətin qiyməti Avropa qiymətlərinə sürətlə yaxınlaşır. Maaşımız, pensiyamız həmin sürətə çatmasa belə dözürük, çünki ən azı qiymət baxımından Avropa dövləti olacağıq. Vaxtilə dəyərli ziyalı və politoloqlarımız "Avropanın yaxşısını götürüb, pisini atmaq lazımdır" deyərkən yəqin qiymətləri yaxşı, pensiyanı pis qrafasında görüblər.

Həmçinin əhalinin azalması, qadınların uşaq doğmaqdan imtinasının dəhşətli dərəcədə çoxalması baxımından sivil Qərb ölkələrinə yaxınlaşırıq, bəzilərini hətta ötüb keçmişik. Məsələn, 2023-cü ildə Azərbaycanda 73 min abort olunubsa, Niderlandda 39 min olub. (Hələ Niderland əhalisinin Azərbaycandan 8 milyon nəfər çox olmasını, həmçinin abort qadağan edilən bəzi Avropa ölkələrindən, məsələn, Polşadan ora axının olduğunu nəzərə almıram). Ümumilikdə 2020-2024-cü illər arasında ana yurdumuzda abort sayı 290 mindən çox olub.

Millətə filan qədər uşaq pulu verilir. Doğmaq, xəstəxana xərcləri, uşağı oxutmaq, böyütmək hamısı dövlət hesabına, bəs görəsən uca millətimiz niyə uşaq yaratmaq istəmir? Bu haqda ciddi fikirləşmək lazımdır. Böyük ehtimalla, yuxarıda yazdığım səbəbdir: ər-arvadlar yüngülvari, 9 aylıq əziyyətə belə tablaşmaq istəmir, kef çəkib özləri üçün yaşamaq istəyirlər. Maşallah, maaş və pensiyalar da buna böyük imkan açır. Maaşını al, Maldivə uç. Pensiyanı bir-iki ay topla, Pensilvaniyaya dünya turuna çıx. Şərait çox əladır. Şəxsən mən bizə belə şərait yaradıldığı üçün Biləcərinin deputatı qarşıq bütün hökumətə dərin minnətdarlığımı bildirirəm. Deputatın adını bilmirəm, yoxsa yazardım. Əvvəlki Hacı Madər idi, onu dəqiq bilirdik. Hacı öləndən sonra eynilə Avropadakı vəziyyətdir, axı oralarda da camaat çox vaxt rəhbərliyi, nazir-maziri-zadı tanımır. Nəyinə gərək tanısın, problem olmayandan sonra hökumət adamın heç yadına düşmür.

Bax, Avropadan götürmək lazım olmayan pis şeylərin başında, məncə, elə bu laqeyd, biganə münasibət durur. Qorxuram yaxşı yaşayışımız davam elədikcə xalq hökuməti unuda. Bu istiqamətdə tədbirlər davamlı keçirilməlidir. Unutsaq, unudularıq. Elə xalq yazıçımız Kamal Abdulla müəllim bu vəziyyəti uzaqgörənliklə qələmə almışdır: "Unutmağa kimsə yox".

Həmçinin xalqımızın digər sevimli manıslarının bu temada mahnıları vardır: "Taleyimdən çıxıb, gedəndən bəri, Sildin yaddaşından xatirələri. Dəfn etdin bu eşqi sən diri-diri, Unutdun məni". Bəzən bunu səhvən "yaddaşımdan" kimi oxuyurlar, bu isə mənaca düz gəlmir. İnsan özü xatirələri yaddaşından silir. Hətta hökumət də istəsə başqasının yaddaşından xatirələri silə bilməz.

Ya da silər - iqtisadiyyatımız güclüdür. Yəni bu məsələdə çox əmin deyiləm.






# Moskvanın bitməyən Zəngəzur təlaşı - reaksiya

## Rusiya indi də İranın təəssübünü çəkərək dəhliz üçün yeni ideya verir - Kremlin nəbz yoxlaması

**"Tramp adlanan marşrutu İranın maraqlarına xələl gətirmədən təşkil etmək imkanı var". Bunu erməni mediasına rusiyalı politoloq Andrey Areşev deyib. Onun sözlərinə görə, Cənubi Qafqazda münaqişələrin həlli ilə bağlı əvvəlki dialoqlar zamanı belə imkanlar müzakirə olunub və bu müzakirələrə bu və ya digər şəkildə Sünik (Zəngəzur) yolu da daxil edilib.**

"Söhbət Zəngilan rayonundan Naxçıvanın Ordubad rayonuna 42 kilometr uzunluğunda körpünün tikintisindən gedir. Bu fikir söylənilib, bu gün də ifadə olunur. Bu körpü Ermənistan tərəfi ilə birbaşa təmas olmadan Naxçıvana və Türkiyəyə (və əks istiqamətdə) dəmir yolu və avtomobil əlaqəsini təmin edə bilər. Beləcə, Ermənistanla İran arasında quru əlaqəsi pozulmadan qalacaq. Bu, təkcə erməni tərəfinin narahatlığı baxımından deyil, həm də Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü kontekstində vacibdir", - Areşev əlavə edib.

Erməni politoloq Edqar Vardanyan isə deyib ki, İran ABŞ-nin Zəngəzur dəhlizinə nəzarət etməsinə qarşı deyil. Ekspertin iddiasına görə, İran Prezidenti Məsud Pezeşkianın Ermənistana səfərindən sonra Tehran bunda özünə qarşı bir təhlükə görmür:

Bəs görəsən, Areşev və ölkəsi Rusiya nə vaxtdan Zəngəzura görə İranın dərdini çəkməyə başlayıb? Yoxsa İran adı ilə öz maraqlarını gerçəkləşdirməyə çalışır? Dəhliz üstündə dəmir və avtomobil yolu olacaq. Bu, 42 km-lik körpü şəklində mümkündürmü?

Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyası İdarə Heyətinin üzvü, siyasi şərhçi Əli Zülfüqaroğlu "Yeni Müsavat"a deyib ki, Zəngəzur dəhlizi ilə bağlı məsələ Vaşinqtonda öz həllini tapıb və artıq layihənin həyata keçirilməsi üçün tərəflər üzərinə düşən öhdəlikləri yerinə yetirməlidirlər: "Bu baxımdan düşünürəm ki, İran, yaxud Rusiya tərəfindən verilən açıqlamaların heç bir əhəmiyyəti yoxdur. Məsələ ona görə Vaşinqtonda həll oldu ki, Rusiya 10 noyabr bəyanatının Zəngəzur dəhlizi ilə bağlı tələbinin yerinə yetirilməsi üçün heç bir addım atmadı. Yəni İranın Rusiyaya təzyiqləri nəticə verdi və Moskva Tehranın mövqeyini nəzərə aldı. Təbii ki, bu proses Azərbaycanın maraqlarına cavab vermirdi və Bakı konkret addımlar atmalı idi".

**Ə.Zülfüqaroğlunun fikrincə, proses dalana dirəndiyi üçün rəsmi Bakı bəyan etdi ki, digər ərazilərdən Naxçıvana maneəsiz gediş-gəlişin təmin olunması prinsipial mövqedir və nəyin bahasına olursa-olsun, Azərbaycan bunu reallaşdıracaq:** "Təbii ki, prosesi mürəkkəbləşdirən həm də dəhlizə nəzarət uğrunda geosiyasi maraqların toqquşması idi. Rusiya ilə yanaşı Avropa İttifaqı və ABŞ dəhlizə nəzarət etmək istəyirdi. İran isə ümumiyyətlə, dəhlizin açılmasına qarşı idi və bunu sərhəd dəyişikliyi kimi qələmə verir və manipulyasiya ilə məşğul olurdu. Amma Vaşinqtonda imzalanan sənəd İranın bütün arqumentlərini əlindən aldı. İlk növbədə İranın uzun illər hər cür dəstək verdiyi Ermənistan ABŞ-ni öz ərazisinə gətirdi. Yəni İran bunu istəmirdisə, o zaman dəhlizin 10 noyabr bəyanatına uyğun olaraq açılmasına mane olmamalı idi. Digər tərəfdən, əgər Rusiya ABŞ-nin bölgəyə gəlməsinə qarşı idisə, prosesi yubatmadan üzərinə düşən öhdəliyi yerinə yetirməli idi. Göründüyü kimi, həm Rusiya, həm də İran hesab etdi ki, təzyiqləri nəticə verəcək və Azərbaycan bu məsələdə prinsipiallıq nümayiş etdirməyəcək. Amma həm Rusiya, həm də İran məsələyə 20 il öncəki geosiyasi vəziyyətin pəncərəsindən baxdığı üçün yanıldılar. Hesab etmədilər ki, həm dünyada, həm də bölgədə fərqli geosiyasi reallıqlar var, Azərbaycan müstəqil siyasət yürüdən güclü oyunçudur".

**Ə.Zülfüqaroğlu vurğulayıb ki, Rusiya, yaxud İranın narahatlığının prosesə hansısa formada təsiri olmayacaq:** "Proses elə aparılıb ki, Rusiya və İranın əks-arqumentlərinə yer qalmayıb. Digər tərəfdən, İran və Rusiya hansısa pozucu addım atmaq niyyətinə düşərsə, o zaman həm də ABŞ ilə üz-üzə qalacaqlar. Bu baxımdan düşünürəm ki, proses istənilən formada inkişaf edəcək. İranın Ermənistanla quru əlaqələrinin kəsilməsi və digər əsassız fikirlər reallığı özündə əks etdirmir. Digər tərəfdən, İran artıq reallığı qəbul edir və İsraillə problemlərinin həlli üçün Vaşinqtonla diplomatik kanalları açıq tutmağa və ona zərər verməməyə çalışır. Rusiyanın da Ukrayna məsələsinə görə ABŞ-yə ehtiyacı var. Yəni hər şey incəliyinə qədər hesablanıb. Ona görə də, proses istək və arzulara deyil, reallıqlara əsaslanır".

**Siyasi analitik Asif Nərimanlı isə körpü ideyasını reallıqdan uzaq görür:** "Zəngəzur dəhlizinin 42 kilometrlik körpüdən təşkil edilməsi fantastik görünür. Çünki bunun üçün böyük xərc lazımdır və əsas məsələ odur ki, belə bir xərci kim üzərinə götürəcək. Digər tərəfdən, Zəngəzur dəhlizinin təkcə avtomobil və dəmiryolundan ibarət olmayacağı bəllidir. Bu marşrut enerji resurslarının yeni keçidlərindən biri kimi də nəzərdən keçirilir, yəni kifayət qədər böyük layihədən söhbət gedir. Bu baxımdan, körpü iddiası reallıqdan uzaq görünür. Rusiyalı ekspertlərin İranın adı ilə belə bir ideyadan çıxış etməsi isə Moskvanın gedişidir. Kreml bir növ ictimai rəyə yeni ideya təqdim edir və bunu öncə ekspertlərin dili ilə gündəmə gətirməklə nəbzi yoxlayır. Digər tərəfdən, də belə bir fikri ortaya atmaqla bir növ İrana mesaj ötürülür ki, quru yolunu özünə təhdid hesab edən Tehran da eyni fikri dəstəkləsin. İstisna deyil ki, körpü və buna bənzər qeyri-real ideyalar qarşıdakı dövrdə də ortaya atılacaq".

❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025

# Qafqazda yeni cəbhə açmaq hazırlığı - şok gəlişmə

## Rusiya və İran prezidentlərinin danışığından sonra Tehran Qərbə qarşı hərəkətlənməyə çağırır - Bakının reaksiyası




**"Cənubi Qafqazda 3+3 formatı regional mübahisələrin həllində uğurlu təcrübədir". Bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai mətbuat konfransında bildirib.**

İran XİN rəsmisi deyib ki, "Cənubi Qafqaz ölkələri transregional müdaxilələrin qarşısını almaq üçün regional mexanizmləri gücləndirməlidirlər və İran bu istiqamətdə fəal iştirak edir".

"Cənubi Qafqazda 3+3 formatı tarixə malik bir çərçivədir. Bu format Azərbaycan və Ermənistanın da daxil olduğu region ölkələri ilə Cənubi Qafqazı əhatə edən dövlətlər arasında məsləhətləşmələr üçün yaradılıb. İndiyədək müxtəlif ölkələrdə çoxsaylı görüşlər keçirilib və ilk görüşlərdən biri də Tehranda baş tutub. Bu mexanizm indiyədək xüsusən Azərbaycan və Ermənistan arasında mübahisələrin həllinə kömək edən regional platforma kimi özünü doğruldub", - o qeyd edib.

Göründüyü kimi, rəsmi Tehran "Cənubi Qafqaz ölkələri transregional müdaxilələrin qarşısını almaq üçün regional mexanizmləri gücləndirməlidirlər və İran bu istiqamətdə fəal iştirak edir" mesajı ilə Qərbin və ABŞ-ın bölgədəki addımlarına qarşı hərəkətlənməyə çağırış edir. "Tramp marşrutu" və Bakı ilə İrəvan arasında sülh razılaşmalarından sonra cənub qonşumuz yenidən "altılıq platforması"nı gündəmə gətirir. Halbuki son zamanlar bu barədə az danışılırdı. Sadəcə, 3+3 çərçivəsində əməkdaşlıq o qədər də sadə məsələ deyil. Lakin Rusiya və İran destruktiv siyasətinə son qoymağı bacarsa, bu platforma reallaşa bilər. Çünki hər şey Moskva və Tehranın münasibətindən asılıdır. Eyni zamanda Gürcüstanı da razı salmaq lazımdır.

Tiflis Moskva ilə düşmənçiliyi səbəbindən bu formatdan imtina edir. Azərbaycanla Ermənistan arasında son anlaşmalar çərçivəsində "altılıq platforması" "beşlik format"nda çevrilə də bilər. Amma İrandan verilən son bəyanat açıq-aşkar şəkildə Cənubi Qafqazı regiondan kənar güclərə qarşı çıxmağa dəvətdir.

Xatırladaq ki, avqustun 25-də Rusiya və İran prezidentləri telefonla danışıb. Liderlər Cənubi Qafqazı və regional kommunikasiyaları müzakirə ediblər.

Bütün bu addımlar və açıqlamalar regionda strateji qarşıdurmanın getdikcə dərinləşəcəyindən xəbər verir, yoxsa İrandan növbəti destruktiv mövqedir?

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, siyasi şərhçi Tural İsmayılov** "Yeni Müsavat"a bu barədə açıqlamasında öncə bildirdi ki, İran Xarici İşlər Nazirliyinin son açıqlaması Cənubi Qafqazda yeni siyasi dinamikanın işarəsidir: "Rəsmi Tehran 3+3 formatını regional mübahisələrin həlli üçün uğurlu mexanizm kimi təqdim etsə də, bu yanaşmanın arxasında daha geniş geosiyasi hesablamalar dayanır. Əslində İran özünü bölgədə aparıcı güc kimi göstərməyə çalışır və regiondakı proseslərdən kənarda qalmaq istəmir. 3+3 formatı ideya olaraq maraqlı və tarixi əhəmiyyətə malikdir. Burada həm Cənubi Qafqaz ölkələrinin, həm də qonşu güclərin iştirakı nəzərdə tutulur. Azərbaycan üçün bu platforma müharibədən sonrakı dövrdə sülh, sabitlik və iqtisadi əməkdaşlıq baxımından imkanlar yaradır. Amma mexanizmin işləkliyi və dayanıqlığı ilk növbədə tərəflərin real niyyətindən asılıdır. İran təsmilərinin son açıqlamasını diqqətlə oxuduqda görmək olur ki, Tehran əsasən, transregional güclərin bölgəyə daxil olmasına qarşı çıxır. Bu mesaj həm Vaşinqtona, həm də Avropa paytaxtlarına yönəlib. Amma İranın Cənubi Qafqazda xarici təsirə qarşı çıxması özünün təsir dairəsini artırmaq niyyəti ilə uzlaşır. Başqa sözlə, Tehran regionda boşluq yarandıqca onu doldurmaq istəyir".

**T.İsmayılov xüsusilə qeyd etdi ki, Azərbaycan üçün 3+3 formatı ilk növbədə regional kommunikasiyaların açılması və iqtisadi əməkdaşlıq baxımından önəmlidir:** "Tehran bəzən öz maraqlarını ön plana çəkərək, real əməkdaşlıq imkanlarını kölgədə qoyur. Regionda destruktiv mövqe sergiləyən Rusiya ilə İranın yaxınlaşması da bu platformanın uğurunu şübhə altına alır. Çünki əgər Moskva və Tehran ikili maraqları önə çəksə, formatın mahiyyəti əməkdaşlıqdan çox qarşıdurmaya çevrilə bilər".

**Ekspert vurğuladı ki, Gürcüstanın bu proseslərdən kənarda qalması əlavə çətinlik yaradır:** "Tiflis Moskva ilə münasibətlərinə görə 3+3-də iştirak etmir və bu da formatı avtomatik 3+2-yə çevirir. Bu vəziyyətdə Azərbaycanın marağı Gürcüstanın da olmasıdır, çünki Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Qars kimi layihələr regionun əsas dayaqlarıdır. Gürcüstanın iştirakı olmadan Cənubi Qafqazda iqtisadi əməkdaşlıq mexanizmləri natamam görünür".

**STM təmsilçisinin fikrincə, İranın "transregional müdaxilə" ifadəsi başqa məna daşıyır:** "Bu, əslində Cənubi Qafqazın Qərb təsirindən qorunması çağırışıdır. Amma reallıq ondan ibarətdir ki, Azərbaycan balanslı siyasət aparır və istər regional, istərsə də qlobal oyunçularla əməkdaşlığa maraqlıdır. Bakı üçün əsas prioritet milli maraqların qorunması və iqtisadi imkanların artırılmasıdır".

**T.İsmayılov dedi ki, Rusiya və İran liderlərinin son telefon danışığı da təsadüfi deyil:** "İki dövlət açıq şəkildə Cənubi Qafqaz üzərindən öz maraqlarını koordinasiya etməyə çalışır. Amma Azərbaycanın iştirakı olmadan bu cür təşəbbüslərin uğur qazanması mümkünsüzdür. Regionun əsas söz sahibi Azərbaycan və Türkiyədir.

Azərbaycanın mövqeyi isə tam rasionaldır: sülh müqaviləsi, sərhədlərin müəyyənləşdirilməsi və regional əməkdaşlıq. Əgər İran doğrudan da "3+3" formatını uğurlu mexanizm kimi görürsə, o zaman Ermənistanı sülh prosesinə sövq etməlidir. Halbuki, indiyədək Tehran daha çox status-kvonu qoruyan, Ermənistanın maraqlarını üstüörtülü şəkildə müdafiə edən addımlar atıb.

Bütün bunlara baxmayaraq, Bakı bu platformanı tamamilə rədd etmir. Əksinə, Azərbaycan üçün bu mexanizm maraqlıdır, amma şərt ondan ibarətdir ki, tərəflər destruktiv mövqedən əl çəksin. Əgər məqsəd həqiqətən regional sabitlik və əməkdaşlıqdırsa, Azərbaycan buna dəstək verməyə hazırdır".

**Regionda yeni cəbhənin açılıb-açılmayacağına gəldikdə, siyasi şərhçi hesab edir ki, bu, məhz sonrakı davranışlardan asılıdır:** "Əgər İran və Rusiya 3+3-ü yalnız Qərbə qarşı bir alət kimi görsələr, bu, yeni qarşıdurmalara yol aça bilər. Amma əgər Bakı və Ankara ilə əməkdaşlıq önə çıxarılsa, format bölgədə sabitlik üçün real imkan yarada bilər. İranın açıqlaması həm də region ölkələrinə mesajdır: "Qərbə güvənməyin, öz mexanizmlərinizi qurun". Amma Azərbaycan üçün seçim çoxdan bəllidir - Bakı həm regional əməkdaşlığa, həm də qlobal inteqrasiyaya açıqdır".

İstənilən halda Azərbaycan Prezidentinin etimad göstərdiyi İran Prezidenti Məsud Pezeşkianın Zəngəzur dəhlizi qorxulu layihə olmadığı və Azərbaycanla əməkdaşlıqda İran tərəfin yol verdiyi səhvlərlə bağlı etiraflarını unuda bilmərik. Yəqin sonda digər İran rəsmiləri də haqqa gələrlər...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**



## Fərhad Məmmədov: "Sülh üçün risklər var"

**Politoloq Fərhad Məmmədov Azərbaycanla Ermənistan arasında əldə edilən sülh razılaşmasına dair şərtlər fonunda gözləntilərlə bağlı Teleqraf-ın suallarını cavablandırıb.**

Ekspert bildirib ki, Azərbaycan tərəfi Ermənistan və erməni xalqı ilə sülhə nail olmaq istəyir: "Sülh bu istiqamətdə mühüm prosesdir. Onun əsas şərti və dar çərçivədə məqsədi odur ki, ölkələr arasında münasibətlər sistemini formalaşdırır. Münaqişədən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması münasibətlər sisteminin formalaşmasında əsas şərtdir. Bu, qarşılıqlı fəaliyyəti təmin edən əsas amillərdəndir".

Onun sözlərinə görə, avqustun 8-də Vaşintonda Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın baş naziri Nikol Paşinyan arasında əldə edilən sənədlər hazırkı dövr üçün mühüm nəticədir: "Bu, yekun sülh sazişinin imzalanmasına qədər iki dövlət üçün münasibətləri tənzimləmək istiqamətində çərçivə formalaşdırır. Əsas nəticə odur ki, defakto sülh dövründə gücdən istifadə istisna edilir.

**F.Məmmədov deyib ki, siyasi-diplomatik vasitələr əsas amil kimi qəbul edilib:** "Ermənistan işğalçı dövlət olduğu üçün sülh istiqamətində addımları daha çox onun atması lazımdır. Ermənistan Konstitusiyasındakı dəyişiklik Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən müddəaların aradan qaldırılmasında məhz erməni cəmiyyətinin mövqeyinin ifadəsi kimi qəbul ediləcək. Ermənistan hökuməti artıq Azərbaycanın sülh gündəliyini qəbul edib. Azərbaycan üçün vacib olan odur ki, Ermənistan cəmiyyəti də bunu nümayiş etdirsin. Bu prosesdən sonra yekun sülh sazişinin imzalanması mümkün ola bilər. Bununla Ermənistanla münasibətlərdə keyfiyyətcə yeni mərhələ başlayacaq".

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025

# Nəsiminin məzarı Azərbaycana gətirilsinmi? - tanınmışların rəyi



**Böyük şairin qəbrinin Suriyadan vətənə köçürüləcəyi xəbərinə etiraz edənlər də var, tərəfdarı olanlar da; Rasim Balayev: "Əgər gətirilsəydi, xalqımız və qonaqlar onu ziyarət edərdi"**



**Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin məzarı Suriyadan Azərbaycana gətirilə bilər. APA-nın əldə etdiyi xəbərə görə, Azərbaycan dövləti Nəsiminin məzarının ölkəyə köçürülməsində maraqlıdır.**

Belə ki, artıq bu istiqamətdə Suriya tərəfi ilə ilkin təmaslar aparılıb, bu haqda Suriyaya məlumat verilib.

İmadəddin Nəsiminin məzarı Suriya Ərəb Respublikasının Hələb şəhərindədir. Neçə illərdir hərbi münaqişənin davam etdiyi şəhərdə Nəsiminin də məzarı dağıntılara məruz qalıb.

Xatırladaq ki, Ulu öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci katibi kimi 1970-ci ildə Suriya Ərəb Respublikasında səfərdə olarkən Nəsiminin məzarı səliqəyə salınır. Daha sonra Heydər Əliyev məzarı ziyarət edir.

2019-cu ildə İmadəddin Nəsiminin 650 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilib.

Qeyd edək ki, Azərbaycanla Suriyanın keçid hökuməti arasında yaxşı münasibətlər var. Prezident Əhməd əş-Şaara ölkəmizə səfər edib. Bakı qazı Suriyaya nəql edilməyə başlanıb. Bu mənada, Nəsiminin məzarının gətirilməsi siyasi rəhbərliklər səviyyəsində həll oluna bilər. Lakin bu, nə dərəcədə mümkündür? Və ümumiyyətlə, buna ehtiyac varmı? Nəsimi sufi idi. İslam buna necə yanaşır?

**"Yeni Müsavat" bildirir ki, şərqşünas alim, nəsimişünas Səadət Şıxıyeva Nəsiminin məzarının Azərbaycana köçürülməsinə ehtiyac olmadığını deyib:** "Nəsiminin məzarını deyil, dünya kitabxanalarında mövcud olan əsərlərinin əlyazmalarını Azərbaycana gətirmək lazımdır. Hələb Nəsiminin alın yazısıdır, ilahi təqdirdir. Özü də o məkanı seçdi, ora ilə bağlı siyasi-ictimai və dini ideyalar yolunda canından keçdi. Şairin məzarını dəyişmək ideyası nə din, də tarix baxımından doğru deyil. Onun məzarının ətrafında doğmaları, şəxsiyyətinə sevgiyə görə yaxınlığında dəfn olunmağı vəsiyyət edən əsilzadələrin məzarı var.

Şairimizə, mütəfəkkirimizə sahib çıxmanın yolu onu əbədi uyuduğu məkandan çıxarıb saxta qəbir düzəltmək deyil. Nəsiminin məzarı üzərində tikilən türbə yüzillər boyunca ziyarətgah olub, bu gün də o statusdadır. Əgər bütün mühacir şairlərimizin məzarı dəyişdiriləsi olsa, onda Azərbaycanda böyük bir saxta məzarıstan yaradılar. Onda gərək Xaqani, Fələki, Füzuli, Bakıxanov və digərlərinin də məsələsi qaldırıla. Bunlar gərəksiz və ciddi olmayan təkliflərdir. Şəhid şairimizin ruhunu narahat etməyin, lütfən".

**Deputat Fazil Mustafa** Musavat.com-a danışıb. Millət vəkilinin fikrincə, bu məsələdə nəsimişünas Səadət Şıxıyeva tamamilə haqlıdır: "Mən də bu mövqedəyəm. Hansısa bir şəkildə təhlükəsizliklə bağlı problem yoxdursa, məzarın gətirilməsi düşünülə bilər. Amma indi buna nə ehtiyac var? Lap tutaq ki, gətirildi, Azərbaycanda dəfn edildi. İndi burada dəfn etdikdən sonra guya vəziyyət dəyişir? Nəsiminin şəhərin mərkəzində heykəli var. Kimsə gedib Nəsiminin heykəlinə əlavə gül qoyur, yaxud ibadət edir? Və ya xüsusi sayğı göstərir? Yəni bunların hamısı müəyyən dərəcədə bir dövr üçün Azərbaycanın klassik şairlərinin tanınması və başqa məsələlərlə bağlı aparılan təbliğat idi".

**Millət vəkili Elnarə Akimova** da deyib ki, Nəsiminin məzarının Azərbaycana gətirilməsi kifayət qədər düşündürücü məsələdir və bunu heç bir halda Hüseyn Cavidin qərib məzarının tapılıb vətənə gətirilməsi ilə müqayisə etmək olmaz: "Nəsiminin qəbrinin Hələbdə olması 600 il əvvəl Hələbdə Azərbaycan dilinin necə böyük bir mədəniyyəti təmsil etməsinin, Azərbaycan dilinin arazilərinin necə geniş əhatə dairəsinə malik olmasının göstəricisidir. 600 il əvvəl Azərbaycan türklərinin ərəb torpaqlarında irfan dilini necə vüsətlə poetik dil statusu qazandırmalarının təkzib olunmayan ifadəsidir. Nəsiminin məzarını 1968-ci ilin noyabrında Hələbə səfər etmiş Rəsul Rza aşkar etmişdir. Yəni 600 il Hələb şəhəri Azərbaycan şairinin məzarını ehtiramla qorumuşdur. Məzarın yaxınlığından keçən küçə də Nəsiminin adını daşıyırdı. Eyni sözləri Füzulinin Kərbəladakı məzarına da aid etmək olar və bunu heç bir halda Hüseyn Cavidin qərib məzarının tapılıb vətənə gətirilməsi ilə müqayisə etmək mümkün deyil".

"Nəsiminin məzarının Hələbdə qalması daha çox töhfə verə bilər, nəinki ölkəmizə gətirilməsi".

Bunu Demokrat.az-a açıqlamasında **deputat Ceyhun Məmmədov** deyib. O bildirib ki, Nəsiminin təkcə Azərbaycanın tarixi şəxsiyyəti olmadığını nəzərə almalıyıq: "Bu məsələ uzun müddətdir müzakirə olunur. Hesab edirəm ki, gələcəkdə nəzərdən keçirilə bilər. Amma nəzərə alsaq ki, Nəsimi yalnız Azərbaycana məxsus tarixi şəxsiyyət deyil, bütün müsəlman dünyasının tarixi şəxsiyyətidir. Ona görə düşünürəm ki, Nəsiminin məzarı Suriyada qalarsa, yaxşı bərpa olunarsa, bu, Azərbaycanın tarixi şəxsiyyətinin tanınmasına töhfə verə bilər. Çünki Suriya ərazisi özündə böyük tarixi əks etdirən bölgədir. Hələb çox məşhur şəhərdir. Ona görə hesab edirəm ki, Hələbdə qalması daha çox fayda verər, nəinki Azərbaycana gətirilməsi".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Xalq şairi Sabir Rüstəmxanlı da Nəsiminin məzarının Azərbaycana gətirilməsinə qarşı olduğunu deyib:** "Nəsiminin məzarı Hələb qalasının ətəyində yerləşir. Azərbaycan dövləti Suriya ilə birgə əməkdaşlıq quraraq bu məzarı abadlaşdıra, onu daha layiqli şəkildə qoruyub saxlaya bilər. Mən düşünürəm ki, bu cür müzakirələr artıq sonlandırılmalıdır. Əsas məsələ onların fiziki harada dəfn olunduqları yox, əsərlərinin, ideyalarının və ruhlarının necə yaşadıldığıdır".

"Fikrimcə, hökumət necə məsləhət bilirsə, elə də yaxşı olar. Mən dini baxımdan bunun düzgün olub-olmadığını dəqiq deyə bilmirəm, amma xatırlayıram ki, Hüseyn Cavidin məzarı Azərbaycana gətirilmişdi. O vaxt Cavid Sibirin ucqar bir tərəfində qalmışdı, orada onu heç kim tanımırdı. Lakin məzarı Azərbaycana köçürüldükdən sonra hər kəs - məktəblilər də, ziyalılar da onun qəbrini ziyarət edir. Mənə elə gəlir ki, Nəsiminin məzarının da Azərbaycana gətirilməsi doğru olardı".

Bu sözləri isə "Yeni Müsavat"a açıqlamasında **Xalq artisti, "Nəsimi" filmində şairin obrazını yaratmış Rasim Balayev** deyib.

Xalq artisti qeyd edib ki, hazırda yerlə-yeksan edilən Hələb şəhərində Nəsiminin məzarı tənha qalıb: "Hələb şəhəri indi yerlə-yeksan edilib, dağıdılıb. Şəhər demək olar ki, ölü bir məkana çevrilib. Əgər Nəsiminin məzarı Azərbaycana gətirilsəydi, xalqımız və ölkəmizə gələn qonaqlar onu ziyarət edərdi. Çünki orada, Hələbdə onun məzarına gedən, ziyarət edən yoxdur. Məncə, gətirilməsi daha məqsədəuyğun olar".

**R.Balayev xatırlayıb ki, vaxtilə Füzulinin məzarının da Azərbaycana gətirilməsi məsələsi gündəmə gəlmişdi:** "Amma eşitdiyimə görə, Məhəmməd Füzuli özü vəsiyyət etmişdi ki, ya İmam Hüseynin, ya da İmam Həsənin yanında dəfn edilsin. Mən Füzulinin məzarını ziyarət etmişəm, onun 500 illiyi ilə bağlı tədbirlər zamanı bu məsələ gündəmdə olmuşdu. Çünki şair özü vəsiyyət edib. Ona görə də, məncə, Füzulinin məzarının köçürülməsi düzgün olmazdı. Onsuz da ora gedən zəvvarlar və din xadimləri onun məzarını da ziyarət edirlər. Amma Nəsiminin taleyi fərqlidir: Hələb dağıdılıb, şəhər xarabalığa çevrilib. Mənə görə, onun məzarının Azərbaycana gətirilməsi daha doğru olardı. Bu, həm xalqımız, həm də ölkəmizə gələn qonaqlar üçün böyük bir ziyarətgah, mənəvi mərkəz ola bilər".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



Vudi Allen

## Məşhur rejissor Rusiyanı təriflədi, qəzəbə tuş gəldi

**Amerikalı rejissor Vudi Allen Moskva Beynəlxalq Film Həftəsində onlayn iştirak edib və rus kino sənayesini tərifləyərək, fürsət olarsa Rusiyada film çəkmək istədiyini bildirib.**

Kulis.az xəbər verir ki, tədbir Rusiya Prezidenti Vladimir Putinə yaxınlığı ilə tanınan rejissor Fyodor Bondarçukun moderatorluğu ilə keçirilib. Allen, təklif gələrsə, Moskvada və ya Sankt-Peterburqda çəkilə biləcək filmin ssenarisi üzərində düşünə biləcəyini deyib.

Onun bu çıxışı Ukrayna Xarici İşlər Nazirliyinin kəskin reaksiyasına səbəb olub. Nazirlik Vudi Allenin Rusiyanın "qanlı festivalında" iştirakını qınayaraq, bunun Rusiyanın Ukraynada törətdiyi vəhşilikləri görməzlikdən gəlmək olduğunu bildirib. Qurumun bəyanatında deyilir: "Allen Ukraynada müharibə zamanı həlak olan və ya yaralanan aktyor və rejissorların xatirəsinə hörmətsizlik edib."

Yaranan reaksiyalardan sonra Allen "Associated Press"ə verdiyi açıqlamada Rusiya Prezidenti Vladimir Putini qınayıb və Ukraynadakı müharibəni "dəhşətli" adlandırıb. Eyni zamanda o, "siyasi gərginliklərə baxmayaraq, mədəni dialoqların davam etməli olduğunu" bildirib.

Qeyd edək ki, Vudi Allenin son filmi "Coup de Chance" 2023-cü ildə 80-ci Venesiya Film Festivalında nümayiş olunub.

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Son onilliklərdə dünya sürətlə dəyişir. Qloballaşma prosesləri, informasiya texnologiyalarının inkişafı, sərhədsiz ünsiyyət imkanları insan həyatını asanlaşdırmaqla yanaşı, yeni çağırışlar da yaradıb. İctimai münasibətlərdən tutmuş ailə dəyərlərinə qədər hər bir sahədə köklü dəyişikliklər müşahidə olunur. Bu dəyişikliklərin ən çox təsir göstərdiyi təbəqə isə gənclərdir. Çünki cəmiyyətin gələcəyi məhz onların dünyagörüşündən, həyat seçimlərindən və milli kimliklə bağlı mövqelərindən asılıdır. Azərbaycan cəmiyyəti üçün bu məsələ xüsusilə həssasdır.**



# “Azərbaycan gəncliyi dünyada ən nümunəvi olacaq”

## Elçin Mirzəbəyli: “Gələcəyin milli sahibkarlarının yetişdirilməsi haqqında ciddi şəkildə düşünməliyik”

Biz son yüzilliklərdə həm müstəqillik, həm də itkilər yaşamış, müharibələrin ağrılarını dadmış, eyni zamanda böyük qələbələrin sevincini görmüş bir xalqıq. Belə bir tarixi yaddaşa malik toplumun gələcək nəsillərinin üzərinə düşən məsuliyyət digər xalqlara nisbətən daha ağırdır. Gənclər sadəcə müasir peşə biliklərinə yiyələnməklə kifayətlənməməli, həm də milli kimliyi, dövlətçilik düşüncəsini və mənəvi dəyərləri gələcəyə daşımalı olmalıdırlar.

Müstəqillik illərində Azərbaycan dövləti gənclər siyasətinə xüsusi diqqət ayırıb. Təhsil imkanlarının genişləndirilməsi, beynəlxalq mübadilə proqramları, gənclərin sosial layihələrdə iştirakı bu siyasətin mühüm tərkib hissəsidir. Amma reallıq göstərir ki, təkcə dövlət dəstəyi kifayət deyil. Cəmiyyətin bütün təbəqələri, ailə institutundan başlayaraq özəl sektora qədər hər kəs bu işdə fəal olmalıdır. Çünki gənclərin yetişməsi yalnız siyasi qərarlarla təmin olunmur, onların formalaşmasına gündəlik həyat, ətraf mühit və ictimai münasibətlər də birbaşa təsir göstərir. Azərbaycan gəncliyi bu gün iki mühüm yol ayrıcında dayanır: bir tərəfdə qloballaşmanın gətirdiyi sərhədsiz imkanlar və cazibədar modellər, digər tərəfdə isə milli kimliyi qorumaq və dövlətçiliyin möhkəmlənməsinə xidmət etmək vəzifəsi.

**Deputat Elçin Mirzəbəyli** “Yeni Müsavat”a bildirdi ki, cəmiyyət, nəsillər arasındakı mənəvi bağlar qırılanda, milli identikliyin genetik kodları sayıla biləcək dəyərlər “keçmişin qalığı” kimi ayaqlar altına atılanda deqradasiyaya uğrayır, özünqoruma instinkti korşalır, milli immun sistemi paramparça olur: “Bütövlükdə, ölkəmizin yeni dövrdə Azərbaycan gəncliyindən gözləntiləri ilə bağlı fikir yürüdə bilmərəm. Belə bir səlahiyyətim, iddiam və istəyim yoxdur. Olduqca mürəkkəb bir zaman kəsiyindən, ictimai-siyasi kataklizmlərdən keçmiş, məğlubiyyətin acısını, Zəfərin qürurunu yaşamış bir azərbaycanlı olaraq, gənclərimizdən yeganə gözləntim Azərbaycan tarixinə, dilinə, mədəniyyətinə əbədiyyətədək sahib çıxmaları, özlərini böyük dövlətçilik ənənələrinə, yüksək mədəniyyətə, fitri istedada, sarsılmaz iradəyə, qətiyyətə malik qürurlu bir xalqın nümayəndələri kimi yetişdirmələridir. İnsan da, millət də təkcə gələcəyinə deyil, keçmişinə də sahib çıxanda böyük olur”.

**Deputatın sözlərinə görə, siyasətçinin də, həkimin, mühəndisin və digər peşə sahiblərinin də bir Azərbaycan vətəndaşı kimi obrazlarının və fəaliyyətlərinin bütün rəngləri bayrağımızın üzərində yer alıb:** “Siyasi proseslərə də, gündəlik həyata da bayrağımızın rənglərinin daşıdığı mənə yükündən çıxış edərək yanaşmağa üstünlük verirəm. Hazırda peşəkar siyasətlə və siyasi analitika ilə məşğul olan soydaşlarımızın arasında gənclərimizin sayı az deyil. Amma çox da deyil... Bu da təbii qəbul olunmalıdır. Siyasətçi siyasi proseslərin labirintlərindən keçərək formalaşır, "istixana"larda yetişdirilmir. Hazırda fəal siyasətlə məşğul olan gənclərimizin arasında perspektivlərinə böyük ümidlər bəslədiyim gənclər var. Çox sevinirəm ki, peşəkar siyasətlə, siyasi analitika ilə məşğul olan gənclərimizin arasında qadınlarımızın sayı getdikcə artır. Bu çox vacib faktordur. Həyatın bütün sahələrində olduğu kimi siyasətdə də harmoniyanın qorunub saxlanmasına çox böyük ehtiyac var. Qadınların olduğu yerdə isə mütləq harmoniya olur".

**E.Mirzəbəyli zaman-zaman gənclərlə bağlı xüsusi dövlət proqramının qəbul edilməsi ilə bağlı səslənən təkliflərə də münasibət bildirdi:** “Dövlətimiz mütəmadi olaraq, gənclərlə bağlı müxtəlif proqramlar qəbul edir. Amma bütün digər istiqamətlərdə olduğu kimi, gənclərlə bağlı proqramların qəbul edilməsində və həyata keçirilməsində bütün yükün dövlətin üzərinə qoyulmasının da tərəfdarı deyiləm. Özəl sektorun bu prosesdə daha fəal olmasını arzulayardım. Xüsusilə də təhsil proqramlarının hazırlanıb həyata keçirilməsində... Bu gün ölkəmizdə qeyri-enerji sektorunun inkişafına böyük ehtiyac var. Bu baxımdan gənc iş adamlarının arasından ən yaxşılarının seçilərək, onların inkişafına dəstək verilməsini zəruri hesab edirəm. Biz gələcəyin, sözün əsl mənasında milli sahibkarlarının yetişdirilməsi haqqında ciddi şəkildə düşünməliyik”.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# “Bütün universitetlər Qarabağa köçürülməlidir” - Təklif



**“Universitetlərin hamısı niyə Bakıda olmalıdır? Kampusu olmayan universitet nəyə lazımdır? BDU-dan başqa (tarixdəki yerinə, simvolizmə görə), bütün universitetlər regionlara, əsasən də, Qarabağa, Şərqi Zəngəzura köçürülməlidir. Başqa yol yoxdur”.**

Musavat.com bildirir ki, bu barədə iqtisadçı Natiq Cəfərli deyib.

İqtisadçının fikrincə, işğaldan azad edilmiş bölgələrin inkişafı da buna bağlıdır:

“Xankəndindəki model, Qarabağ Universiteti modeli doğrudur, Qarabağ və Şərqi Zəngəzurda eyni model tədbiq edilməlidir. Azad edilmiş torpaqlarda iqtisadi aktivlik üçün universitetlər və torpağa milkiyyət məsələsi həll edilməlidir - yoxsa indiki model işlək olmayacaq.

Universitet şəhəryaradan müəssədir, ətrafında həyat qaynayır, iqtisadi aktivlik yaranır. Dövlət iqtisadiyyatda əsas oyunçu olaraq oralarda müəssisə açmağa çalışmaqdansa, investisiya qoyub universitetləri ora köçürsə, iş yerləri, köç prosesi orqanik, ən əsası, qalıcı olacaq”.

❑ **Xalidə GƏRAY, Musavat.com**

# 104 ailə Ağdama yola düşdü



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən, yenidən qurulan Ağdam rayonunun Xıdırlı kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yola salınıb.**

Modern.az xəbər verir ki, bu mərhələdə Ağdam rayonunun Xıdırlı kəndinə 104 ailə - 370 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda həyatlarını qurban vermiş şəhidlərimizə rəhmət diləyiblər.

Hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır.

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025



# Bakıdakı iki erməni quldur ömürlük cəza almayacaq - səbəb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi davam etdirilir.**

Artıq xeyli vaxtdır ki, hərbi canilərin işinə baxılır, ifadələri alınır, zərər çəkmişlər dinlənilir. Prokurorlar məhkəmə proseslərində Qarabağda törədilmiş hərbi cinayətlərin sübutlarını bir-bir təqdim edirlər. "Yeni Müsavat" bildirir ki, bu prosesdə iki quldurbaşı ömürlük həbs olunmaya bilər. Qarabağda xunta rejiminə rəhbərlik etmiş Arkadi Qukasyan və Bako Saakyan 65 yaşı keçdiyi üçün Azərbaycan qanunlarına əsasən, ömürlük azadlıqdan məhrumedilmə cəzasından azad olunur.

Belə ki, Qukasyan 1957-ci il təvəllüddür, 68 yaşı var, Saakyan isə 1960-cı ildir, avqustun 30-da 65 yaşı tamam olur. Yada salaq ki, Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Vaqif Xaçaturyanın da 65 yaşı olması nəzərə alınaraq 15 il müddətinə azadlıqdan məhrum edilib. Bu baxımdan, qondarma rejimin keçmiş iki liderinə də 15, yaxud 20 il həbs veriləcəkmi?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** deyir ki, məsələ sırf hüquqi müstəvidə dəyərləndirilsə, burada Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 57-ci maddəsi həlledici rol oynayır: "Həmin maddəyə görə, ömürlük azadlıqdan məhrumetmə yalnız 18 yaşına çatmış və hökm çıxarılan tarixdə 65 yaşına çatmamış şəxslərə tətbiq oluna bilər. Yəni qanunverici ömürlük cəzanı müəyyən yaş həddindən yuxarı şəxslər üçün yasaq edib. Bunun səbəbi isə humanizm prinsipidir. 65-dən yuxarı şəxsin ömürlük cəzaya məhkum edilməsi beynəlxalq hüquqi yanaşmalarda ağır və qeyri-insani davranış kimi qiymətləndirilə bilər. Azərbaycan da bu prinsipləri öz qanunvericiliyində nəzərə alıb".

**Onun sözlərinə görə bu baxımdan, Arkadi Qukasyan və Bako Saakyanın barəsində ömürlük azadlıqdan məhrumetmə hökmü çıxarıla bilməz:** "Hərçənd onların törətdiyi əməllər, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər və terrorçuluq ömürlük həbs cəzası tələb edəcək qədər ağırdır. Lakin qanunun imperativ normasına görə yaş senzini keçmiş şəxslərə ömürlük hökm oxuna bilməz. Digər bir mühüm detal budur ki, Azərbaycan məhkəmələri həmin şəxslərə qarşı ən ağır mümkün alternativ cəzanı, yəni 15 ildən 20 ilə qədər azadlıqdan məhrumetməni tətbiq edə bilər. Məsələn, Meşəli soyqırımında təqsirli bilinən Vaqif Xaçaturyana 65 yaşı olduğuna görə 15 il həbs verilməsi bu presedentlərdən biridir. Bu, qanunun birbaşa tətbiqidir və məhkəmələr sabah eyni maddi-hüquqi vəziyyəti nəzərə alaraq, Saakyan və Qukasyan barəsində də oxşar qərar verə bilərlər".

**Natiq Ələsgərov deyir ki Azərbaycan dövlətinin mövqeyi dəyişməyib:** "Cinayətkarlar cəzalandırılacaq, lakin bu cəza milli qanunvericiliyin çərçivəsində olacaq. Yəni məhkəmə hüquqi mexanizmlərdən kənara çıxmır, şəxsi nifrət və emosiyaya əsaslanmır, yalnız qanunun aliliyinə söykənir. Bu isə öz növbəsində beynəlxalq arenada Azərbaycanın haqlı mövqeyini gücləndirir".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# İŞİD-çi ailələri Azərbaycana verilir - sensasion rəqəm

## Hüquqşünas deyir ki, bu şəxslərin hüquqi statusları ilə bağlı qanunvericilikdə bir sıra boşluqlar mövcuddur

**İraq hakimiyyəti hazırda həbsxanalarda saxlanılan çoxsaylı əcnəbi qadın və onların övladlarını mərhələli şəkildə azad edərək vətənlərinə yollamaq planı üzərində işləyir. Xarici mənbələrin məlumatına görə, həmin qadınların əksəriyyəti "İslam Dövləti" (İŞİD) terror qruplaşmasının üzvləri ilə nikaha girməkdə və ya onlarla əlaqədə olmaqda ittiham edilərək həbs edilib.**



İraq təhlükəsizlik orqanlarının nümayəndələri bildiriblər ki, məhbusların çoxu Rusiya, Türkiyə və Azərbaycan vətəndaşlarıdır. Onların bir qismi könüllü şəkildə, bir qismi isə məcburi olaraq İŞİD üzvləri ilə ailə həyatı qurub.

"Yeni Müsavat" "TESAA"ya istinadən xəbər verir ki, İraq Ədliyyə Nazirliyi avqustun 23-ü əcnəbi və ərəb əsilli qadın məhbusların, həmçinin onları müşayiət edən uşaqların memorandumlardan, əməkdaşlıq sazişlərindən və qarşılıqlılıq prinsipindən irəli gələrək öz ölkələrinə deportasiyası planının icrasına başlandığını elan edib. Nazirliyin sözçüsü Əhməd Laibi bildirib ki, Milli Təhlükəsizlik üzrə Ali Nazirlər Şurası ədliyyə naziri Xalid Şavaniyin rəhbərliyi ilə Ali komitə yaradılması barədə göstəriş verib. Komitəyə Ali Məhkəmə Şurasının, Xarici İşlər Nazirliyinin və Milli Təhlükəsizlik Məsləhətçiliyinin nümayəndələri də daxildir. Laibinin sözlərinə görə, komitə artıq müvafiq ölkələrin səfirlikləri ilə əməkdaşlıq edərək deportasiya prosedurlarının başlanması istiqamətində iş aparır. O, İraq islah müəssisələrində yüzlərlə qadın məhbusun və onların uşaqlarının saxlanıldığını vurğulayıb.

Qərara əsasən, yalnız ölüm hökmünə məhkum edilən qadınlar deportasiya prosedurlarına daxil edilməyəcək. Digər qadınlar və onların uşaqları isə yaxın zamanda öz ölkələrinə göndəriləcək. Rəqəmlərə əsasən, hazırda İraq həbsxanalarında təxminən 625 əcnəbi qadın və 60 azyaşlı saxlanılır.

Hökumət artıq xüsusi komissiya yaradaraq xarici məhbusların deportasiya prosesini planlaşdırır. Bu qərar, həmçinin İraq həbsxanalarının kəskin doluluğu ilə əlaqələndirilir. Rəsmi statistikaya görə, ölkənin 31 həbsxanasında hazırda 65 min nəfər var ki, bu da onların real tutumunu - 30-35 min nəfəri - iki dəfəyə qədər üstələyir.

Siyahıda dəqiq rəqəmlər açıqlanmasa da, Azərbaycan vətəndaşı olan qadınların sayca çoxluq təşkil etdiyi vurğulanır. Onların arasında müxtəlif illərdə Suriyaya və İraqa gedərək orada İŞİD üzvləri ilə evlənən və yaxud iradələri xaricində həmin bölgələrdə saxlanılan şəxslər mövcuddur.

Qeyd edək ki, İraqla Azərbaycanı bir çox bağlar bağlayır. Hazırda da Azərbaycan və İraq arasında əlaqələr inkişaf edir, beynəlxalq təşkilatlarda əməkdaşlıq var. Hələ sovet vaxtı, 1974-cü ildə İraq Respublikasının Bakı şəhərində Baş Konsulluğu fəaliyyət göstərib. SSRİ respublikaları arasında yeganə ilk İraq konsulluğu Bakıda açılıb. Sovet İttifaqının dağılmasından sonra İraq Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdən biri olub və 1992-ci ildən etibarən ölkələrimiz arasında diplomatik əlaqələr səfirlik səviyyəsinə yüksəlib.

İndi də iki ölkə arasında münasibətlərin yeni mərhələsi başlanır. Sadəcə, İraqda uzun illər mövcud olmuş qeyri-sabitlik səbəbindən əlaqələr kəsilib. Və bu müddətdə İraqdakı terror qruplarına, İŞİD-ə qoşulan azərbaycanlılar da olub. Onların bir qismi öldürülüb, bir hissəsi həbsdədir, bəziləri Azərbaycana gələrkən istintaqa cəlb olunub. İraqda İŞİD-in tərkibində döyüşüb həlak olmuş azərbaycanlıların orada qalan arvad-uşaqları da var.

Bu ilin mayında Bağdadda Azərbaycan və İraqın xarici işlər nazirləri Ceyhun Bayramov və Fuad Hüseyn arasında nümayəndə heyətlərinin tərkibində danışıqlar aparılıb.

"Biz Azərbaycan vətəndaşı olan qadın İŞİD üzvlərinin mövcudluğunu və onların öz ölkəsinə qaytarılmasını müzakirə etdik. Xarici İşlər Nazirliyi bu məsələləri davamlı olaraq izləyir", - İraq XİN rəhbəri əlavə edib.

Azərbaycan İŞİD-ə qoşulanların ailələrinin qaytarılması prosesini yekunlaşdıra biləcəkmi? Yəni onların sayını dəqiqliklə bilmək mümkündürmü?

**Hüquqşünas Ramil Süleymanov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Deməli, 2009-2010-cu illərdən etibarən Azərbaycanda İslam dininin müxtəlif məzhəblərinə və təriqətlərinə mənsub olan bir sıra şəxslər İraq və Suriyaya gedərək, oradakı dırnaqarası cihad çağırışına qoşuldular. Lakin sonrakı illərdə həmin bölgələrdə gedən aktiv hərbi əməliyyatlar nəticəsində onların bir qismi həyatını itirdi. Nəticədə Azərbaycanda rəsmi nikahda olduqları həyat yoldaşları və övladları həmin münaqişə zonalarında qaldılar.

Həmin qadınların geri qayıtması isə mümkünsüz hala gəldi. Çünki həmin ərazilərdə dırnaqarası şəriət qanunları adı altında hökm verən müəyyən dini qruplar onların öz ölkələrinə dönməsinə qadağa qoyaraq fətvalar verdilər. Bu fətvalara əsasən, qadınların həmin bölgədə digər müsəlman olan şəxslərlə nikahları kəsilməklə orada qalmaqları təmin olundu. Nəticədə bir çox qadın orada qalmağa məcbur oldu.

Hazırda Azərbaycanda da bu qəbildən olan qadınlar mövcuddur. Hətta onların münaqişə zonalarında bağladıqları qeyri-rəsmi nikahlardan dünyaya gələn uşaqlar da Azərbaycan dövləti tərəfindən həmin ailənin övladları kimi qəbul edilir və hüquqi baxımdan rəsmiləşdirilir.

Həmin uşaqların ataları ölmüş şəxs kimi, anaları isə onları dünyaya gətirən hüquqi valideyn kimi qəbul olunur. Çünki bununla bağlı Ailə Məcəlləsində konkret tələblər mövcuddur".

Hüquqşünas qeyd edib ki, bu şəxslərin hüquqi statusları ilə bağlı qanunvericilikdə bir sıra boşluqlar mövcuddur. Bu hüquqi rejimin tətbiq olunması üçün dövlət müəyyən hüquqi amnistiyalar elan etməlidir, onların barəsində aparılan araşdırmaları yekunlaşdıraraq, əməllərinə daha yüngül hüquqi qiymət verməlidir. Bununla yanaşı, həmin şəxslərin faktiki və sosial vəziyyətlərini tənzimləmək üçün konkret tədbirlər planı hazırlanmalıdır. Hazırkı şəraitdə həmin şəxslərin cəmiyyətə adaptasiyası olduqca ciddi problem olaraq qalır. Buna görə də dövlət bu istiqamətdə mütləq şəkildə məqsədyönlü addımlar atmalıdır. Bundan əlavə, Azərbaycan dövləti xaricdə yaşayan bütün soydaşlarının hamisi kimi çıxış edir və onların hüquqi yardım almasını təmin etmək öhdəliyinə malikdir.

Bu baxımdan, İraqda fəaliyyət göstərən Azərbaycan səfirliyi daha aktiv mövqe tutmalı, həm İraq, həm də Suriyada olan azərbaycanlı qadınların, xüsusilə də sənədsiz vəziyyətdə olanların statistikasını aparmalı və onların dəqiq sayını müəyyənləşdirməlidir. Ardınca isə həmin şəxslərin ölkəyə təhlükəsiz şəkildə geri dönməsini təmin etmək üçün xüsusi mexanizmlər yaradılmalıdır. Düşünürəm ki, bu, ən doğru yoldur".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025

# Putinə son xəbərdarlıq - Rusiyanı 2 həftəyə nə gözləyir?

## ABŞ liderinin ardınca alman kansleri də Kreml sahibini hədələdi; ekspertlər onun hansı halda dayanacağını açıqladı

**"Vladimir Putin və Volodimir Zelenskinin görüşü baş tutmasa, Rusiya ciddi nəticələrlə üzləşəcək". Bu sözləri ABŞ Prezidenti Donald Tramp Ağ Evdə jurnalistlərə açıqlamasında deyib.**

"Çox böyük nəticələri ola bilər. Baxacağıq, nə baş verir. Bu müharibəni bitirmək lazımdır", - deyə Tramp bildirib.

"Rusiya və Ukrayna prezidentləri Vladimir Putinlə Volodimir Zelenski arasında görüş baş tutmasa, Moskva yeni sanksiyalarla üzləşə bilər".

Bunu isə Almaniya Kansleri Fridrix Merts deyib. Kansler bildirib ki, Avropa İttifaqı artıq Rusiyaya qarşı əlavə məhdudlaşdırıcı tədbirlər hazırlayır. Həmçinin o, ABŞ Prezidenti Donald Trampın Rusiyaya qarşı yeni tarifləri və digər cəzaları tətbiq edəcəyini istisna etməyib.

ABŞ Prezidenti Donald Tramp Rusiya-Ukrayna müharibəsini durdurmaq üçün demək olar ki, bütün variantlardan istifadə etsə də, hələlik gözlədiyi nəticəni əldə edə bilməyib və ona görə də ağır sanksiyalar tətbiq edəcəyi xəbərdarlığıyla Putinə yenidən iki həftəlik vaxt verib.

Əgər Rusiyanın Ukrayna ilə bağlı narahatlığı həqiqətən də bu ölkənin NATO-ya qəbuludursa, məlum olduğu kimi, ABŞ açıq şəkildə bunun əleyhinə çıxış edir. Amma buna baxmayaraq, hər halda Ukraynanın təhlükəsizliyi üçün müəyyən zəmanət mütləq verilməlidir. Moskva belə bir zəmanəti özü üçün böyük təhlükə sayırsa, deməli, əsas məsələ heç də Ukraynanın NATO-ya girməsi deyil. Kremlin başlıca məqsədi Ukraynanın bir dövlət kimi xəritədən silinməsdir. Deməli, Rusiya Prezidenti Vladimir Putin özünü güclü hiss etdiyi üçün irəliyə sürdüyü şərtlərdən geri çəkilməməkdə israrlıdır.

Bəs Putin nəyə arxayın olaraq bu cür inadkar siyasi kurs tutub?

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov** "Yeni Müsavat"a açıqlamasında Trampın Ukraynaya da sanksiyalar tətbiq edə biləcəyini anons etdi: "ABŞ Prezidenti Tramp artıq neçənci dəfədir ki, Rusiyaya danışıqlar masasında oturmaq və müharibənin dayandırılması istiqamətində real addımlar atmaq üçün vaxt verir. Son dəfə verilən vaxtın bitməsinə iki gün qalmış ABŞ və Rusiya prezidentlərinin görüşü keçirildi və nəticədə vəd olunan sanksiyalar da arxa plana keçmiş oldu. İndi isə Tramp Putinin timsalında Rusiyanın danışıqlar prosesindən vaxt qazanmaq üçün istifadə etdiyini anlamağa başlayıb. Xüsusilə də Trampın Zelenski və Avropa liderləri ilə görüş zamanı Putinlə apardığı 40 dəqiqəlik danışıqlardan sonra Zelenski-Putin görüşünün keçiriləcəyinə dair verdiyi bəyanata Rusiya XİNin başçısı Lavrovun reaksiyasından sonra Ağ Ev Rusiya ilə bağlı konkret addımların atmağın zəruriliyini dərk edib.

Amma yenə də 2 həftəlik vaxt verməklə Rusiyanı danışıqlar masasına oturmağa məcbur etmək istəyir. Onu da deyim ki, Tramp bu təzyiqi təkcə Rusiyaya etmir. İki gün əvvəl Ağ Evdəki çıxışında da Tramp "Mən Rusiya və ya Ukraynaya sanksiyalar, yaxud güclü tariflər tətbiq etməklə minlərlə insanı xilas edə bilərəm", - deyə bir açıqlama ilə çıxış etdi ki, bu da güzəştlər olmayacağı halda Ukraynaya qarşı da sanksiyaların tətbiq edilə biləcəyinin anonsu idi.

Putinin bu hədələrdən necə nəticə çıxaracağını proqnozlaşdırmaq çətindir. Çünki onun davranışları və bəyanatları müharibənin dayandırıla biləcəyinə dair təəssürat yaratmır. Rusiya özünün ilkin şərtlərindən nisbətən geri çəkilsə də, xüsusilə də Donbasın Rusiya əraziləri olaraq tanınmasında israr edir. Bundan savayı Ukraynaya təhlükəsizlik zəmanəti veriləbiləcəyinə dair müsbət mesajlar verməsinə baxmayaraq hər hansı bir xarici ölkənin hərbi birliklərinin Ukrayna ərazisinə yerləşməsinə razı olmadığını bildirir və bunu özünün təhlükəsizliyinə təhdid olaraq qiymətləndirir.



Bu davranış hətta Zelenski və Putin arasında görüş baş tutsa belə, həmin görüşün nəticəsiz başa çatacağına dair ehtimalları artırır. Düşünürəm ki, indiki halda NATO ölkələrinin təhlükəsizlik zəmanəti adı altında öz hərbi birliklərini Ukrayna ərazisinə yerləşdirməklə bağlı bəyanatları da, Trampın sanksiya təhdidləri də hansısa formada Putini güzəştlərə məcbur etməyə hesablanıb.

Buna nə qədər nail olunacağını bir müddət sonra görəcəyik. Düşünürəm ki, Putin-Zelenski görüşü baş tutmayacağı və ya baş tutsa belə nəticəsiz başa çatacağı halda, ABŞ danışıqlar prosesindən çıxmaq haqqında qərar qəbul edəcək. Ondan sonra isə silah və texnikanın NATO və Avropa İttifaqına satılması ilə Ukraynanın silahlandırılmasında dolayısı ilə iştirak edəcək. Eyni zamanda uzun müddətdir vəd edilən sanksiyalarla bağlı da hansısa addımların atılması ehtimal oluna bilər".

**Politoloq yalnız bu halda Kreml sahibinin geri çəkiləcəyini düşünür:** "Əgər NATO ölkələri və Avropa İttifaqı Ukraynaya vəd edilən dəstəyi davam etdirəcəklərsə, ABŞ uzaqmənzilli raketlərin Ukraynaya ötürülməsi üçün NATO-ya satılmasını təmin edəcəksə və paralel olaraq Rusiyanın enerji məhsullarını alan ölkələrlə bağlı sərt qərarlar qəbul olunacaqsa, yalnız o zaman Putinin öz inadkar kursundan geriyə çəkilməsi baş tuta bilər. Hələlik isə Putin çox güman ki, ABŞ-nin hansı addımlar atacağını və sanksiyalar tərbiq olunacağı halda Hindistan, Çin və Braziliyanın buna reaksiyasını gözləyəcək".

**"Cross Media" Təhlil Mərkəzinin analitiki, siyasi şərhçi Mübariz Göyüşlü Tramp qəti addımlar atmayacağı təqdirdə Rusiyanın dayanmasını mümkünsüz hesab edir:** "Rusiya-Ukrayna müharibəsi ABŞ-nin, onun prezidenti Donald Trampın münaqişəni bitirmək cəhdlərinə baxmayaraq davam edir. Məsələ burasındadır ki, Trampın cəhdlərindən sonra müharibə sanki bir az da artıq qızışıb, daha gərgin bir şəkildə davam edir. Halbuki Tramp müharibəni tez bir zamanda dayandıracağını vəd etmişdi. O, bunun üçün Ukraynanı sıxışdırmaq, Rusiyaya güzəştə getmək kimi bir siyasət yürütdü. Bütün cəhdlərinə rəğmən nəticə sıfırdır. Rusiya nəinki dayanmayıb, əksinə, yeni ərazilər işğal etmək üçün Ukraynada şəhərləri, kəndləri dağıtmaqda, dinc insanları öldürməkdə davam edir. Bütün bu hadisələr isə ABŞ-nin indiki administrasiyası üçün, onlar tərəfindən təqdim olunan sülh təklif və planlarına ciddi zərbədir.

Buna görə də Trampın Rusiyaya qarşı sərt addımlar atması lazımdır. Bu olmayacağı təqdirdə Rusiyanı dayandırmaq, ümumiyyətlə, mümkün olmayacaq. Bütün bunlara görə ABŞ-nin Rusiyaya qarşı daha sərt sanksiyalar tətbiq etməsi mümkün ola bilər. Bundan başqa, ABŞ Ukraynaya daha çox silah verə, daha müasir və dağıdıcı silahlar təqdim edə bilər.

O ki qaldı Rusiyanın inadkarlığına... Bu situasiyada Putinin də başqa çıxış yolu yoxdur. O, bütün siyasətini, fəaliyyətini Ukrayna müharibəsi, orada işğal etdiyi torpaqların üzərində qurub. 2022-ci ildən bəri aparılan müharibədə Rusiya çox böyük itkilər verib. Bunların hamısının üstündən xətt çəkib Ukrayna torpaqlarından çıxmaq Putinin sonu ola bilər. Ona görə də Rusiya lideri hətta istəsə belə, Ukraynanın işğal olunmuş ərazilərindən çıxa bilməz. Trampla danışıqlara qoşulmaq Putin üçün sülh istəyən lider imitasiyası yaratmaq və vaxt udmaq üçündür. Putin nəinki işğal etdiyi əraziləri boşaltmaq fikrindədir, hətta o sülh üçün çox ağır şərtlər sürməkdə, yeni ərazilər tələb etməkdədir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Zelenski: "Rusiyadan neqativ siqnallar alırıq"



**Rusiya müxtəlif bəhanələrlə Putin-Zelenski görüşündən və sülh anlaşmasından yayınmaqda davam edir. "AzPolitika" xəbər verir ki, Ukrayna başçısı Volodimir Zelenski öz Telegram kanalında Kremldən Ukrayna, Rusiya və ABŞ liderlərinin görüşləri və gələcək hadisələrlə bağlı mənfi siqnallar aldıqlarını yazıb:**

"Əhəmiyyətli sahə ABŞ ilə münasibətlərdir, bu münasibətlərdə maksimum substantivlikdir. İndi ruslar, təəssüf ki, görüşlər və gələcək hadisələrlə bağlı neqativ siqnallar verirlər. Şəhər və kəndlərimizə hücumlar davam edir. Hər gün yeni qurbanlar olur. Bütün bunlara cavab olaraq ruslar yalnız güclü təzyiqləri nəzərə alacaqlar. Təzyiq lazımdır. Biz buna konkret olaraq ümid edirik. Rusiya tərəfinin diplomatik addımları, real addımları lazımdır".

Zelenski həmçinin vurğulayıb ki, avropalılar, amerikalılar və Ukraynanın digər tərəfdaşları Ukrayna üçün güclü və çoxtərəfli təhlükəsizlik zəmanətlərinin arxitekturasını fəal şəkildə hazırlayır.

## HƏMAS-ın önəmli fiquru öldürüldü



**İsrail ordusu HƏMAS-ın Qəzzadakı Ümumi Təhlükəsizlik Aparatının rəhbəri Mahmud əl-Əsvadı hava zərbəsi ilə öldürdüyünü açıqlayıb. Axar.az xəbər verir ki, bu barədə İsrail mediası məlumat yayıb.**

Məlumatda bildirilir ki, əl-Əsvad terror təşkilatının Qərbi Qəzza üzrə ümumi təhlükəsizlik lideri kimi fəaliyyət göstərirdi və ordu onu HƏMAS üçün əhəmiyyətli bilik mənbəyi kimi təsvir edirdi.

YENİ MÜSAVAT
N 152 (8762) 28 avqust 2025

# Bakıda yanan iri bazarlar - sahibkarlar niyə sığortadan qaçır?

## Obyekt sahibləri onları gözləyən külli miqdarda zərəri kompensasiya etməyə hər dəfə biganə yanaşırlar; mütəxəssislərdən iş adamlarına çağırış

**“Sədərək” ticarət mərkəzi tərəfindən icarəyə verilmiş anbarda şiddətli yanğın hadisəsi uzun illərdir Azərbaycanda həlli düyünə düşən bir problemi yenidən aktuallaşdırdı. Söhbət ticarət sektorunda əmlakın sığortasından gedir. Bura ilk növbədə daşınmaz deyil, daşınar əmlakın - yəni binaların deyil, onlarda yerləşən mağazalarda satılan malların sığortası aiddir. Məlumdur ki, Azərbaycanda geyimdən tutmuş, taxta-şalbana, uşaq oyuncağına qədər bütün növ məhsulların satıldığı ticarət obyektlərinin mühüm əksəriyyətində malların sığortalanması nadir rast gəlinir. Adətən, bunu tək-tək fəaliyyət göstərən brend mağazalar edirlər: onların yerləşdiyi məkan müxtəlif hadisələr baxımından daha təhlükəsiz sayılır, üstəlik, satılan malların dəyəri çox yüksək olur. Daşınar əmlakın sığortalanması bir da böyük mollarda qeydə alınır, qoyulan tələblərdən dolayı.**

Kütləvi satışların reallaşdırıldığı bazar və yarmarkalarda, böyük ticarət mərkəzlərində isə ən yaxşı halda mağazaların yerləşdiyi binalar sığortalanır. Bunun da səbəbi Fövqəladə Hallar Nazirliyinin qoyduğu tələbdir, sığortalanma olmadıqda binalar, tikililər istismar üçün zəruri olan təhlükəsizlik təminatı ala bilmirlər.

Qeyd edək ki, bir neçə gün əvvəl “Sədərək”də baş verən yanğından sonra hadisənin qeydə alındığı böyük anbar binasının özünün də sığortalanmadığı üzə çıxıb. Azərbaycan Sığortaçılar Assosiasiyasından Marja.az-a bildirilib ki, ölkədə fəaliyyət göstərən 10 qeyri-həyat sığortası şirkətinə sorğu ünvanlanıb. Lakin “Sədərək”də baş verən yanğından sonra sığorta şirkətlərinə heç bir əmlak sahib(lər)i tərəfindən hər hansı müraciət daxil olmayıb

Mütəxəssis rəyinə görə, bu kimi hadisələrin zərərlərini ölkəmizdə tətbiq olunan Daşınmaz əmlak icbari sığortası, Əmlakın yanğından və digər risklərdən sığortası və Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası növ və məhsulları ilə hadisə baş vermədən əvvəl sığortalanaraq təminat altına almaq mümkündür. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, məhz kütləvi ticarət mərkəzlərindəki mağaza sahibləri bu imkandan yararlanmağa həvəs göstərmirlər.

Müşahidələr, aparılan araşdırmalar göstərir ki, bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblər sırasına mağazaların yerləşdiyi binaların zəruri təhlükəsizlik tələblərinə cavab verməməsidir. Belə ki, bir çox hallarda iri ticarət mərkəzlərinin mülkiyyətçiləri bütün binaların deyil, əsas bir binanın texniki təhlükəsizlik tələblərinə cavab verməsini təmin edir, FHN-dən lazım olan istismar sənədini alırlar. Həmin binaların ətrafında yaradılan yeni tikililərlə bağlı bunu etmirlər, çünki əlavə xərc çəkmək istəmirlər. Onlar uzun illər boyu həmin binalarda yerləri sahibkarlara icarə verir, külli miqdara gəlir əldə edirlər. Lakin icarədar sahibkar icarəyə götürdüyü ərazidə satdığı malları binanın xüsusilə də yanğın təhlükəsizliyi tələblərinə uyğunluq sənədinin olmaması üzündən sığorta etdirə bilmir.

**“Sədərək”dəki yanğından bir neçə həftə əvvəl orada çalışan sahibkarlar Qafqazinfo-ya bu problemi açıq şəkildə qeyd ediblər:** “2009-cu ildən fəaliyyətə başlayan və ilbəil böyüyən ticarət mərkəzinin problemləri bitmir. Mülkiyyətçilər texniki təhlükəsizlik baxımından sərmayə qoymurlar ki, bu da bizim ağır nəticələr qarşısında əlacsız qalmağımıza gətirib çıxarır. Onlar məsuliyyət daşımadan ancaq öz şəxsi mənafelərini və gəlirlərini güdürlər. Hər kəs bilir ki, burada enerji təchizatı bərbad və yüklü vəziyyətdədir. Naqillərin qızmağından hər an yanğın baş verə bilər. Elektrik təsərrüfatında avtomatlar yüklənmiş vəziyyətdə, təftiş qaydalara uyğun aparılmır, sıxılma və digər xidmətlər, sadəcə, monitorinqlərlə aparılır”.

**İcarədarların sözlərinə görə, burada 30-40 min sahibkar çalışır:** “İcarə ödənişləri hər dəfə qaldırılır. Buna baxmayaraq yanğın təhlükəsizliyi ilə bağlı vəziyyət çox facíəvi şəkildədir. Hidrantlar, yanğınsöndürən balonlar, su hovuzları kommunikasiyaları fors-major hala cavab vermir və daha əvvəl də dəfələrlə bu hallar yaşanıb. Ümid ancaq ərazidə fəaliyyət göstərən yanğınsöndürən bölməyə qalır. Ancaq mövcud say və texnika ilə yanğın olduğu halda onunla mübarizə aparmaq sadəlövhlükdür.

**Sahibkarların üzləşdikləri ən böyük problem isə işlətdikləri obyektləri sığortalaya bilməmələridir:** “Sığorta şirkətləri yüksək riskli vəziyyəti nəzərə alaraq, buradakı mağazaları sığortalamaqdan imtina edirlər. Belə ki, Fövqəladə Hallar Nazirliyi buranın istismarına müvafiq rəy və sənəd vermədiyinə görə sığortalamaq da mümkünsüz olub. Bununla bağlı ticarət mərkəzinin mülkiyyətçiləri təəssüf ki, hər hansı addım atmırlar. Biz də öz növbəmizdə aidiyyəti qurumlara müraciət etmişik, problemimizin həll olunması üçün ərizələr yazmışıq”.

Maraqlıdır ki, “Sədərək” rəhbərliyi icarədarların sığorta probleminin səbəbinə toxunmadan, onların öz mallarını sığortalamaqda sərbəst olduqlarını ifadə edib. Oradan portala verilən açıqlamada enerji təchizatında texniki təhlükəsizliyin, yanğın təhlükəsizliyinin təmin olunması üçün guya görülmüş olan çoxsaylı işlər sadalanıb. Lakin ötən günlərdə baş verən yanğın göstərdi ki, həmin işlər, sadəcə, kağız üzərindədir.

Əslində “Sədərək” mövcud problemin mahiyyətini göstərmək üçün yalnız bir nümunədir. Bakı və Abşerondan başlayaraq, bütün rayonlardakı bazarlara qədər, Azərbaycanın heç bir yerində bazar və yarmarkalarda nəinki malların, heç binaların da düz-əməlli sığortası yoxdur.

Bir sıra mütəxəssislərə görə, əgər icarədarlar - bilavasitə mağaza sahibləri maraqlı olsalar, mağazanın yerləşdiyi binanın sahibindən sığorta üçün zəruri şərtləri yaratmalarını tələb edərək, buna nail ola bilərlər. Onların buna maraqlı olmamasının isə bir çox hallarda çoxsaylı səbəbləri var. Birinci səbəb budur ki, kiçik sahibkarlar satışın real həcmini, dövriyyənin məbləğini olduğu kimi göstərmirlər. Burada iki amil əsas rol oynayır: satılan mallar topdansatış mərkəzlərindən hər hansı rəsmi sənəd olmadan buraxılır. Yeni topdansatış mərkəzləri pərakəndə satışa buraxdıqları və əsasən xaricdən idxal etdikləri malların real dəyərini göstərən sənədi vermirlər. Verdikləri sənədlərdə ya bir malın real dəyəri az qeyd olunur, ya da malların sayı. Bundan kənara çıxanlar mal götürə bilmirlər, ya da dəyərinin əvvəlcədən ödənməsi tələbi ilə üzləşirlər. İkinci səbəb ticarətçilərin müxtəlif dövlət qurumlarına ödədikləri qeyri-rəsmi ödənişlərin yüksək həddidir. Çox təəssüflər olsun ki, baxmayaraq ki, uzun illərdir müxtəlif tədbirlər həyata keçirilir, bu sahədə vəziyyət getdikcə daha da pisləşir. Özü də bu, yalnız ticarətçilərə deyil, istehsalçılara da aiddir. Əlində azca imkanı olan bütün dövlət qurumlarında çalışan məmurlar sahibkara iqtisadiyyatın inkişaf drayveri deyil, qeyri-rəsmi gəlir mənbəyi kimi baxırlar. Bunun nəticəsində isə sahibkarlar xərclərini maksimum azaltmaq baxımından vergini az ödəmək üçün dövriyyənin mümkün qədər aşağı qeydə alınmasında maraqlı olurlar. Yeri gəlmişkən, topdansatış mərkəzləri, istehsalçılar da bir çox hallarda eyni səbəbdən pərakəndə satış nöqtələrinə verdikləri malların hamısının rəsmiləşməsindən qaçırlar. Aldığımız məlumatlarda, hətta kənd təsərrüfatı məhsulları istehsalçılarının bir çox hallarda dövlətin mühüm dəstəyi ilə həyata keçirilən aqrar sığorta mexanizmindən məhz istehsal həcmini dəqiq göstərə bilmədikləri üçün yararlana bilmədikləri qeyd edilir.

Əlbəttə, bütün sahibkarların yalnız bu səbəbdən real dövriyyəni gizlətməyə çalışdıqlarını da iddia etmək mümkün deyil. Çünki hər bir cəmiyyətdə qanuni vergiləri ödəməmək üçün müxtəlif fırıldaqlara əl atanlar var: hətta ən demokratik, azad biznes mühiti olan ölkələrdə belə bu kimi hallar vaxtaşırı aşkarlanır. Bəzənsə belə əməllərin nəhəng şirkətlər tərəfindən törədildiyinin şahidi oluruq. Bu baxımdan, belələrinin Azərbaycanda da olması təbiidir. Lakin onların sayı çox azdır.

Beləliklə, qısa bir təhlildən aydın olur ki, əvvəla, iri ticarət mərkəzlərinin sahibləri, daha sonra isə onlardan mağaza icarəyə götürən sahibkarlar daşınar əmlakın sığortalanması üçün zəruri olan şərtləri təmin etmirlər. Bu zaman, əlbəttə, sığortaçıların da prosesə marağı qalmır. Çünki sığortaçı sığortaladığı mağazada gündəlik və aylıq dövriyyə, satış həcmi, anbardırsa, orada olan malların sayı, dəyəri barədə dəqiq məlumata malik olmalıdır. Kiminsə “burada 100 min manatlıq mal var” deməsi ilə sığorta müqaviləsi imzalamaq mümkün deyil. Buna görə də sığorta şirkətləri, mütəxəssislər ticarət sahəsində sığortanın inkişafı üçün ən vacib şərt kimi uçot və qeydiyyatın şəffaflığını irəli sürürlər. Bildirilir ki, sığorta şirkəti risk dəyərləndirməsini dəqiq aparmaq üçün anbardakı malların miqdarını və dəyərini rəsmi uçot və sənədlərlə görməlidir. Əgər mallar uçotdan yayınırsa, sığortalanmaması təbii və rasionaldır.

Bəs prosesi dalandan necə çıxartmaq olar? Əlbəttə, ilk növbədə sahibkarlara yönəlik qeyri-rəsmi, bəzənsə hətta maraqlı dövlət qurumunun təsiri ilə qanunvericiliyə daxil edilmiş yüksək ödəniş tələblərini aradan qaldırmaqla. Bu təmin olunduqdan sonra bütün bazar və yarmarkalarda rəqəmsal uçot sisteminin qurulmasına keçmək olar. Bu sistem bütün ticarət obyektlərinin real vaxtda mal dövriyyəsini elektron qaydada aparmasını, bu məlumatların vergi orqanları və sığorta şirkətləri ilə sinxronlaşdırılmasını ehtiva etməlidir. Prosesə nəzarət üçün müstəqil audit - mal qalığını təsdiqləyən audit xidməti yaradılmalı və bu, sığorta müqaviləsinin şərti olmalıdır.

Sahibkarları sığortalanmaya təşviq etmək üçün diferensial sığorta mexanizmi - şəffaf uçot aparan obyektlərə daha ucuz və əlçatan sığorta təklif olunmalı, uçotdan yayınan obyektlər isə əlavə risk qrupunda qiymətləndirilməlidir.

Bir sıra mütəxəssislər bu sahədə də ən azı ilkin mərhələdə dövlət-özəl əməkdaşlığının tətbiq olunmasını da təklif edirlər: hesab olunur ki, müəyyən sektorlarda risklərin bölüşdürülməsi üçün dövlət dəstək mexanizmləri tətbiq edilə bilər.



❑ Dünya SAKİT,
“Yeni Müsavat”

# Həyət evi olanların nəzərinə: sentyabrın 1-dən...

## Günay İsmayılqızı: “Yeni qanun ölkə üzrə 400 minə yaxın özbaşına tikilinin rəsmi sənədləşdirilməsinə töhfə verəcək”

**Azərbaycanda sənədsiz tikintilərlə bağlı vəziyyətin tənzimlənməsi istiqamətində yeni addımlar atılır. Dünya Bankı Qrupunun “Business Ready” hesabatının 2025-ci il üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərə əsasən, bu ayın sonuna qədər sözügedən problemlə bağlı normativ hüquqi akt layihəsi və əlaqəli sənədlər hazırlanaraq aidiyyəti üzrə təqdim ediləcək.**

Bununla yanaşı, əcnəbilərin mənzil mülkiyyətində torpaq hüquqlarının tənzimlənməsi və torpaq icarəsi mübahisələrinin məhkəmədənkənar həlli üçün arbitraj mexanizminin tətbiqi də gündəmdədir. Yeniliyin sentyabrın əvvəlindən qüvvəyə minəcəyi gözlənilir.

Azərbaycanda texniki pasportu olan köhnə tikililərin qeydiyyatı prosesi sadələşdirilib. Lakin hələ də minlərlə vətəndaş bilmir ki, hansı şərtlərlə evinə rəsmi çıxarış ala bilər. Sovet dövründən miras qalmış torpaq sahələrində 35-40 il əvvəl tikilmiş evlər artıq qanunla tanınacaq və faktiki ölçülərə uyğun çıxarış veriləcək. Bu proses ASAN Xidmət və Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölmələrində həyata keçirilir. Amma burada bir incə məqam var: bu güzəşt yalnız arxiv sənədi olan evlərə şamil edilir. 1995-ci ildən sonra, bələdiyyələrdən sadəcə kağız qəbzlə torpaq alan və her hansı arxiv sənədi olmayan evlər isə hələ də hüquqi baxımdan “görünməzdir”. Abşeron yarımadasında təxminən yarım milyon belə ev mövcuddur. Bu evlərdə yaşayan ailələr illərlə sənədsiz qalıb, daşınmaz əmlak bazarına çıxışdan məhrum olub, ipoteka və rəsmi satış imkanlarından istifadə edə bilmirlər. Mütəxəssislər hesab edirlər ki, bu problemin həlli gecikir.

Görəsən, yeni normativ akt özbaşına tikintilər probleminin həlli və mülkiyyət hüquqlarının qorunmasında real dönüş yarada biləcəkmi?

**Azərbaycan Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinin sədr müavini Günay İsmayılqızı mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bölüşüb**: “Azərbaycanda sənədsiz tikintilərlə bağlı uzun illərdir mövcud olan problemlərin həlli istiqamətində yeni addımların atılması, xüsusən də Dünya Bankı Qrupunun ”Business Ready" hesabatının 2025-ci il üzrə Yol Xəritəsində nəzərdə tutulan tədbirlər çərçivəsində normativ hüquqi akt layihəsinin hazırlanması prosesi davam etdirilir və bu hesabat hər il üçün ayrıca olaraq tərtib olunur. Hesabat çərçivəsində daşınmaz əmlakın qeydiyyatı, biznes fəaliyyəti üçün icazələrin verilməsi, fərdi və hüquqi şəxslərin həyata keçirdiyi fəaliyyətlərin dövlət tərəfindən tənzimlənməsi kimi bir çox istiqamətlər nəzərdə tutulur.

Bu prosesdə Prezident Administrasiyası, Əmlak Məsələləri üzrə müvafiq qurumlar, Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, ticarət qeydiyyatı ilə bağlı dövlət qurumları, həmçinin ictimai fəallar və sahibkarlar da fəal şəkildə iştirak edirlər.

Mülkiyyət hüquqlarının dövlət tərəfindən tanınması daşınmaz əmlak bazarının sağlam inkişafı üçün əsas şərtdir. Texniki pasportu olan köhnə tikililərin sadələşdirilmiş qaydada qeydiyyata alınması artıq yüzlərlə ailəyə rəsmi çıxarış əldə etmək imkanı yaradıb. Abşeron yarımadasında təxminən yarım milyon belə evin olması daşınmaz əmlak bazarında böyük “kölgə seqmenti” formalaşdırır



və bu, ipoteka kreditləri, rəsmi satışlar və investisiya axını baxımından ciddi məhdudiyyət yaradır. Yeni hazırlanacaq normativ akt bu boşluğu aradan qaldırarsa, daşınmaz əmlakın kadastr qeydiyyatına və rəsmi bazara inteqrasiyasına şərait yaradacaq. Bu isə həm dövlət büdcəsinə əlavə vergi gəlirləri, həm də vətəndaşlar üçün maliyyə resurslarına çıxış imkanı deməkdir".

**Günay İsmayılqızı qeyd edib ki, Prezidentin 2015-ci il tarixli, 439 nömrəli fərmanına edilən dəyişikliklər də bu prosesə əlavə imkanlar yaradıb:** “Həmin fərman çərçivəsində 2004-cü ilə qədər mövcud qanunvericiliyə əsasən verilmiş ilkin qeydiyyat sənədlərinin də qəbul edilməsi nəzərdə tutulur. Hazırda hazırlanmaqda olan normativ-hüquqi aktın sentyabr ayının sonuna qədər təqdim edilməsi planlaşdırılır. Bu sənəd xüsusilə hüquqi statusu tam dəqiqləşdirilməmiş torpaq sahələrində yerləşən, uzun illərdir yaşayış üçün istifadə olunan və texniki pasportu mövcud olan tikililərin rəsmi qeydiyyata alınmasını təmin edəcək. Bununla yanaşı, dövlət arxivlərində mövcud olan sənədlər, habelə əvvəlki inventar bürolar və digər müvafiq qurumlar tərəfindən verilmiş sənədlər də nəzərə alınacaq. Qeyd olunan sənədlərin əksəriyyəti "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8-ci maddəsinin tələblərinə uyğun olduğu üçün bu prosesdə onların da rəsmiləşdirilməsi həyata keçiriləcək.

Ümumilikdə, qəbul ediləcək yeni qanun ölkə üzrə 400 minə yaxın özbaşına tikilinin rəsmi sənədləşdirilməsinə mühüm töhfə verəcək və uzun illərdir davam edən bu problemi əhəmiyyətli dərəcədə həll edəcək.

Azərbaycan Qiymətləndiricilər Palatası olaraq hesab edirik ki, yeni normativ akt yalnız sovet dövründən qalma tikililəri deyil, həm də sonradan bələdiyyə torpaqlarında sənədsiz tikilmiş evləri də əhatə etməlidir. Mülkiyyət hüquqlarının tam tanınması ipoteka bazarının genişlənməsinə və vətəndaşların sosial rifahına birbaşa təsir göstərəcək. Şəffaf mexanizmlər yaradılmalıdır ki, nə vətəndaş, nə də bazar iştirakçıları əlavə inzibati maneələrlə üzləşməsin. İnstitusional koordinasiya vacibdir: ASAN Xidmət, Əmlak Məsələləri Dövlət Xidməti və yerli bələdiyyələr vahid platforma üzərindən fəaliyyət göstərməlidirlər".

**Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Ölkədə “kamikadze” azyaşlılar artır - şok xəbərdarlıq

## Yol polisi moped və motosiklet sürən uşaqlarla bağlı valideynlərə çağırış etdi - ekspert rəyi



***“Təəssüf ki, dəfələrlə edilən xəbərdarlıqlara və aparılan profilaktik tədbirlərə baxmayaraq, bəzi moped və motosiklet sürücüləri hələ də yollarda məsuliyyətsiz və təhlükəli davranışlardan əl çəkmirlər. Bu cür qayda pozuntuları yalnız həmin sürücülərin deyil, həm də digər hərəkət iştirakçılarının həyat və sağlamlığı üçün ciddi təhlükə yaradır”.***

Bu barədə BDYPİ-nin məlumatında bildirilib.

Qeyd edilib ki, son zamanlar azyaşlı uşaqların moped və motosikletləri əyləncə məqsədilə ümumi istifadədə olan yollarda idarə etməsi hallarına rast gəlinir: “Bu, həm yol hərəkəti qaydalarının kobud şəkildə pozulması, həm də onların sağlamlığı və həyatının birbaşa təhlükə altına düşməsi deməkdir. Unudulmamalıdır ki, nəqliyyat vasitəsini idarə etmək xüsusi bilik, bacarıq və məsuliyyət tələb edir və uşaqların belə hərəkətlərə yol verməsi qanunla qadağandır”.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha bütün valideynlərə müraciət edərək övladlarının bu kimi təhlükəli hərəkətlərinə laqeyd qalmamağa, onlara ciddi nəzarət etməyə çağırır.

Onu da deyək ki, təkcə cari ilin ilk 6 ayı ərzində özlərinin törətdiyi kobud qayda pozuntuları nəticəsində 12 moped və motosiklet sürücüsü həyatını itirib, 23 nəfər isə ağır xəsarət alıb. Eyni zamanda onların törətdikləri qayda pozuntuları səbəbindən təqsiri olmayan 30-dan çox digər hərəkət iştirakçısı ağır xəsarət alıb və ya dünyasını dəyişib.

Bu rəqəmlər göstərir ki, məsələ yalnız fərdi məsuliyyət problemi deyil, artıq ciddi ictimai təhlükəyə çevrilib.

Bəs azyaşlıların moped və motosiklet idarə etməsinə qanun necə yanaşır?

Qeyd edək ki, azyaşlıların moped və motosiklet idarə etməsi qanunla qəti qadağandır. Azərbaycan qanunvericiliyinə əsasən, yalnız müəyyən yaş həddinə çatmış, müvafiq sürücülük vəsiqəsi almış şəxslər nəqliyyat vasitəsini idarə edə bilər. Bu qaydanı pozmaq istər valideynin məsuliyyətsizliyi, istərsə də uşağın özü tərəfindən hüquqi nəticələr doğurur.

Hüquqşünasların sözlərinə görə, əgər azyaşlı yol qəzası törədərsə, məsuliyyət birbaşa valideynin və ya qanuni nümayəndənin üzərinə düşür. Çünki uşağın qanunsuz olaraq nəqliyyat vasitəsi idarə etməsinə imkan vermək özü cinayət tərkibli hərəkət hesab oluna bilər.

Ekspertlər hesab edir ki, məsələ yalnız hüquqi çərçivədə həll olunmamalıdır. Ən mühüm addım maarifləndirmədir. Məktəblərdə yol hərəkəti qaydalarının tədrisi, ictimai maarifləndirici kampaniyalar və medianın aktiv iştirakı olmadan bu problemi aradan qaldırmaq çətin olacaq.

Bundan əlavə, təklif olunur ki, azyaşlıların belə riskli davranışlara marağını azaltmaq üçün xüsusi “güvənli traslar” və ya uşaq üçün nəzərdə tutulmuş idman meydançaları yaradılsın. Çünki gənclərin adrenalinə, sürət hissinə marağını tamamilə qadağa ilə boğmaq mümkün deyil. Amma onlara təhlükəsiz alternativ təqdim etmək mümkündür. Belə traslarda uşaqlar nəzarət altında motosportla məşğul ola, yarışlara qatıla və enerjilərini düzgün istiqamətə yönəldə bilərlər.

Əks halda, hər gün yeni bir faciə ilə üz-üzə qalmaq ehtimalı qalacaq. Bir tərəfdən uşaqlar həyatını itirir, digər tərəfdən isə günahsız insanlar qəza qurbanına çevrilir.

**Mövzu ilə bağlı nəqliyyat eksperti Eldəniz Cəfərov “Yeni Müsavat”a danışıb:** “Bizim gənc vətəndaşlarımız bilməlidirlər ki, moped əyləncə vasitəsi deyil, nəqliyyat vasitəsidir və bu, qanunvericilikdə də təsbit olunub. Moped idarə edən şəxs yol hərəkəti haqqında qanuna tam şəkildə əməl etməlidir”.

**Ekspert də qeyd edib ki, azyaşlıların moped sürməsi qətiyyən yolverilməzdir:** “Qanuna görə, moped sürmək üçün şəxsin ən azı 16 yaşı olmalıdır. Bu, vacib amillərdən biridir və nəzərə alınmalıdır. 14 yaşdan etibarən elektron skuterlərin idarəsinə icazə verilsə də, moped idarə etmək yalnız 16 yaşdan mümkündür.

Bu problemi həll etmək üçün düşünürəm ki, yalnız Dövlət Yol Polisi və Yol Patrul Xidməti əməkdaşlarının fəaliyyəti kifayət etmir. Burada bütün cəmiyyətin iştirakı vacibdir. İctimai qınaq olmalıdır. Həmin azyaşlıların valideynləri də məsuliyyət daşıdıqlarını dərk etməli və bu məsələni daim nəzarətdə saxlamalıdırlar".

**Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 152 (8762) 28 avqust 2025

Avqust

## Bunları bilirsinizmi?

* Hər il Yer üzünə ildırımla 10 milyon ton azot gətirilir;
* Təxminən Yer kürəsinin 70%-i su ilə örtülüdür. Bundan yalnız 1%-i içməli su kimi yararlıdır;
* Televiziya ilə ilk hava proqnozu 11 noyabr 1936-cı ildə İngiltərədə verilib;
* 1 damla neft 25 litr suyu yararsız hala salır;
* Orta ölçülü aysberqin çəkisi təxminən 20 millyon tondur;
* Burnu silərkən oradakı təzyiq orta hesabla 8800 paskal olur;
* Sutka ərzində insanın ayağının həcmi 8 faiz dəyişə bilər;
* Dünyada birinci əczəxana Bağdadda açılıb;
* İnsan beyni 20 milyard sinir hüceyrələrindən təşkil olunub və gündə 96 milyon bit informasiya yadda saxlaya bilir. İnsan ölərkən təqribən 150 trilyon bit məlumat xatırlayır;
* İlk metro stansiya 1860-cı ildə Londonda açılıb;
* Ürəyin işləməsini yazan ilk elektrokardioqrafiya cihazını 1903-cü ildə Willem Einthoven icad edib.



## Rusiyada alimlər siçovulların beyninə süni intellekt yerləşdirdilər

**Rusiyanın "Neiry" biotexnoloji laboratoriyası beyninə süni intellekt implantasiya edilmiş siçovullar haqqında məlumat verib. Alimlər "RİA Novosti"yə müsahibəsində qeyd ediblər ki, süni intellektin tətbiqi onların normal davranışına təsir etmir: gəmiricilər ətrafındakılara maraq və iştahalarını qoruyub saxlayırlar. Süni intellektdən istifadə etməklə keçirilən təlim gündə 30 dəqiqədən 1 saata qədər davam edir.**

Mütəxəssislər vurğulayırlar ki, siçovullar elektrod vasitəsilə beyin stimullaşdırılmasını məcburiyyət kimi deyil, işarə kimi qəbul edir və mükafat axtararaq tez öyrənirlər. Neyrointerfeys gəmiriciləri öz iradəsindən məhrum etmir: elektrod vasitəsilə ötürülən siqnalı, məsələn, bığlara yüngül toxunuş kimi hiss etmək olar. Əgər siçovul toxdursa və ya yorğundursa, neyrointerfeys işini dayandırır. "Yəni stimullaşdırmanın köməyi ilə biz robot kimi siçanı düzgün istiqamətə dönərək idarə etmirik", - deyə laboratoriyadan izahat verilib.

2024-cü ilin noyabrında rus alimləri dünyada ilk olaraq siçovulun beyninə süni intellekt yeridiblər. Neyrointerfeys beyinin xüsusi sahələrini stimullaşdırmaq üçün elektrodlardan istifadə edərək, gəmiricidə "bəli" və "yox" cavabları ilə əlaqəli xüsusi hisslər yaradır.

# Göz yaşlarını saxlamaq vərdişinin orqanizmə təsiri açıqlandı



**Göz yaşlarını saxlamaq vərdişi sağlamlıq üçün təhlükəlidir. Bu barədə psixiatr Yaqo Fernandes "Metropoles"ə müsahibəsində danışıb. O, insanları heç vaxt göz yaşlarını və digər emosiyaları saxlamamağa çağırıb. Fernandes qeyd edib ki, emosiyaları boğmaq onları yox etmir. Bununla belə, ifadə olunmayan hisslər stres sistemini aktivləşdirir və bununla da orqanizmi yüksək həyəcan vəziyyətinə gətirir. Mütəxəssisin fikrincə, bu, təşviş pozğunluqları, depressiya və yuxusuzluğa gətirib çıxara bilər.**

Bundan əlavə, o bildirib ki, emosiyaları büruzə vermədikdə, bu, bədəndə xroniki ağrı, yorğunluq və immunitetin zəifləməsi kimi nəticələrə gətirib çıxara bilər. Fernandes izah edib ki, ağladıqdan sonra parasimpatik sinir sistemi aktivləşir ki, bu da qan təzyiqini aşağı salır və ürək döyüntülərinin tezliyini azaldır, həmçinin stresin digər təsirlərini neytrallaşdırır.

# Havanın temperaturu ilə qocalma arasında əlaqə müəyyən edilib



**Yüksək temperatur insanları daha tez qocaldır. Bu barədə "The Guardian"da dərc edilən araşdırmada qeyd olunur. Alimlərin fikrincə, istinin insan orqanizminə mənfi təsiri siqaret, alkoqol, qeyri-sağlam qidalanma və fiziki aktivliyin olmamasının sağlamlığa vurduğu zərərlərlə müqayisə edilə bilər. Yeni araşdırmada iştirak edən şəxslərin bioloji yaşını müəyyən etmək üçün müxtəlif tibbi testlərin nəticələrindən istifadə edilib.**

Tədqiqatçılar belə nəticəyə gəliblər ki, qocalma prosesinin sürətlənməsinə ən çox anormal istilərin müddəti təsir edir. Tədqiqatda 25 000 mindən çox insan iştirak edib.

## Dünyada ən az ziyarət edilən ölkə: Yer üzündən silinə bilər



**Tuvalu ölkəsi Yer kürəsində ən az ziyarət edilən yerdir və tədqiqatçıların proqnozlarına görə, bütöv bir ölkə növbəti dörddəbir əsr ərzində tamamilə yox ola bilər. Alimlər həmçinin Tuvalunun tamamilə Yer üzündən silə biləcək səbəbləri də açıqlayıblar. Məlumatlar göstərir ki, iqlim dəyişikliyi və dəniz səviyyəsinin qalxması səbəbindən demək olar, bütün Tuvalu ölkəsi 25 il ərzində su qabarması zamanı su altında qalacaq. Nəşr yazır ki, bu proqnoz ada dövlətinin təxminən 11000 sakini üçün acınacaqlı reallıq yaradır, halbuki bu bölgə cənnət kimi turizm məkanı ola bilərdi.**

Alimlərin fikrincə, Sakit okeanda ada dövlətləri olan Tuvalu, Vanuatu, Nauru, Kiribati və digər onlarla dövlət üçün iqlim dəyişikliyinin bariz nəticəsi su qabarmalarıdır. 2023-cü ildə NASA alimləri tərəfindən aparılan bir araşdırma göstərib ki, Tuvalu ətrafında dəniz səviyyəsi 1993-cü ildəkindən artıq 15 santimetr yüksəkdir. Məlumatlar göstərir ki, qabarmaların sayı təkcə artmaqla kifayətlənməyib, həm də sürətlənir.

İndi təxminən hər 3 Tuvalu sakinindən 2-si daşqınla üz-üzə qalır ki, bunu bir əsrdə yalnız bir dəfə gözləmək olar. Alimlər həmçinin aşkar ediblər ki, iqlim dəyişikliyi Tuvaluda faktiki şəkildə həyatın bütün sahələrini məhv edir:

- okean yeraltı su ehtiyatlarını çirkləndirib, indi ölkə şirin su üçün yağışdan asılı vəziyyətə düşüb;
- quraqlıqlar daha tez-tez və güclü olur, yağışların yağması ehtimalı azalır;
- gözlənilməz yağıntılar, duzluluq məhsul yetişdirilməsini çətinləşdirir;
- yerli balıqlar ölür, bəzi balıqlar isə zəhərli növə çevrilir.

Dünyada ən az gedilən ölkə kimi tanınan Tuvalunun pik turizm mövsümü isə 2019-cu ildə baş verib, o zaman ölkəni 3600 insan ziyarət edib. Lakin düşünməyin ki, dəniz ölkəni udduqdan sonra turizmə son veriləcək. 2022-ci ildə Tuvalu parlamentinin deputatı və "Gələcək indi" layihəsinin xüsusi elçisi Saymon Kofe bildirib ki, torpaq yox olacağı üçün yerli əhalinin dünyanın ilk rəqəmsal milləti olmaqdan başqa seçimi yoxdur.

Bunun üçün ölkə öz sərhədləri daxilində olan bütün 124 adanın ətraflı 3D skanını tamamlayıb ki, onları rəqəmsal şəkildə yenidən yarada bilsin. Konstitusiya, iqlim dəyişikliyinin təsirlərindən asılı olmayaraq, Tuvalunun sərhədlərini və dövlətçiliyini daimi elan etmək üçün yenilənib. Hətta mahnılar, hekayələr və rəqslər belə rəqəmsal şəkildə qorunub saxlanılıb və "Tuvalunun özünün ruhunu özündə daşımaq üçün nəzərdə tutulmuş" arxiv yaradılıb. Bununla belə, bəzi ekspertlər hesab edirlər ki, "rəqəmsal millət" kimi yenidən meydana gəlmək ilk baxışdan göründüyü qədər asan olmaya bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakìka" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bilər.

Lìsenzìya N: B 114
SAYI: 1.500